AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ
AĞCABƏDİ FİLİALI




# “ZƏFƏR GÜNÜ AZƏRBAYCANIN ŞANLI TARİXİDİR”

***mövzusunda***

***ELMİ - PRAKTİKİ KONFRANSININ***

# *MATERİALLARI*

***AĞCABƏDİ-2022***

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**
**AĞCABƏDİ FİLİALI**



# *“Zəfər günü Azərbaycanın şanlı tarixidir”*

## *mövzusunda elmi-praktiki konfransının*

# *MATERİALLARI*

***“Zəfər günü Azərbaycanın şanlı tarixidir” mövzusunda elmi-praktiki konfransin materiallari ADPU-nun Ağcabədi filialının Elmi Şurasının 16 noyabr 2022-ci il tarixli 02/6-s saylı iclasının (Protokol №02) qərarı ilə çap olunur.***

**AĞCABƏDİ – 2022**


İLHAM ƏLİYEV
Azərbaycan
tarixinin
ən şərəfli
səhifəsini
yazır










AZƏRBAYCAN-TÜRKİYƏ QARDAŞLIĞI
ƏBƏDİDİR, SARSILMAZDIR!
AZƏRBAYCANIN SEVİNCİ BİZİM SEVİNCİMİZ, KƏDƏRİ BİZİM KƏDƏRİMİZDİR. AZƏRBAYCAN BİZİM QARDAŞIMIZDIR.
BİZ BİR MİLLƏT, İKİ DÖVLƏTİK. BU, BİZİM DOSTLUĞUMUZUN, QARDAŞLIĞIMIZIN MƏNASINI, MƏZMUNUNU TƏŞKİL EDİR.






44 günlük Vətən müharibəsinin şəhid həkimləri
Tarıyel Qasımov
Adil Əfəndiyev
Turqut Xəlilbəyli
Anar Məmmədov
Aqşın Ənvərli
Nurlan Fərəməzov
Rasim Abdullayev
Mirlətif Ağayev
Azər Şəmilov
Şöhrət Qasımov


44 günlük
Zəfər

# KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

**Sədr:**

| | |
|---|---|
| Mobil Məcidov | ADPU-nun Ağcabədi filialının direktoru, dosent |

**Təşkilatçılar:**

| | |
|---|---|
| Baxış Ələsgərov | ADPU-nun Ağcabədi filialının “İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası” kafedrasının müdiri, dosent |
| Vaqif Allahverdiyev | ADPU-nun Ağcabədi filialının “Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası” kafedrasının müdiri, dosent |

**Üzvlər:**

| | |
|---|---|
| Seymur Süleymanov | ADPU-nun Ağcabədi filialının tədris və elmi işlər üzrə direktor müavini, dosent |
| Mahir Səlimov | ADPU-nun Ağcabədi filialının tərbiyə işləri üzrə direktor müavini, dosent |
| Tahir Kərimli | ADPU-nun Ağcabədi filialının “Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası” kafedrasının müdiri, b/m. |
| Sahib Zeynalov | ADPU-nun Ağcabədi filialının “Riyaziyyat, informatika və onların tədrisi texnologiyası” kafedrasının müdiri, dosent |
| Bahar Mustafayeva | ADPU-nun Ağcabədi filialının Kitabxana müdiri |
| Sahibə Nəsirova | ADPU-nun Ağcabədi filialının “Kompüter mərkəzi”nin müdiri |
| Fatma Əliyeva | ADPU-nun Ağcabədi filialının “Kompüter mərkəzi”nin mütəxəssisi |

**MÜNDƏRİCAT**

***Giriş sözü:***
*Mobil Məcidov*........................................................................................................ **4**

***Vətən müharibəsindəki zəfər tariximizin şanlı səhifəsidir***
*Məhəmməd Hüseynov*.................................................................................................. **5**

***Şuşa – şəhər mədəniyyətinin nadir incisidir***
*Tahir Kərimli*.............................................................................................................. **9**

***Şanlı Azərbaycan ordusu qələbəmizin təminatçısıdır***
*Seymur Süleymanov*.................................................................................................... **13**

***Müasir Azərbaycan poeziyasinda Qarabağ hadisələrinin və qələbəmizin bədii əksi***
*Vaqif Allahverdiyev*...................................................................................................... **16**

***II Qarabağ müharibəsi dövlətçilik tarixinin ən şərəfli səhifəsidir***
*Yaqub Səmədov* .......................................................................................................... **20**

***Qələbəmizin təminatı istiqamətində görülən mühüm işlər***
*Sahib Zeynalov*............................................................................................................ **23**

***Azərbaycan diplomatik müstəvidə möhkəmlənməsi***
*Baxış Ələsgərov*............................................................................................................ **26**

***Zəfərə aparan yol***
*Anar Kərimli*................................................................................................................. **30**

***Vətən müharibəsi dövründə Türkiyə - Azərbaycan qardaşlığı***
*Fəridə Mikayılova*.......................................................................................................... **32**

***II Qarabağ müharibəsinin qalibi, Müzəffər Ali Baş Komandan***
*Araz Əliyev*................................................................................................................... **36**

***Qarabağ müharibəsinin qəhrəman tibb işçiləri***
*Şəbnəm Abbasova* ....................................................................................................... **41**

***Zəfər Günü bədii nəzəri aspektdən***
*Maya Abdullayeva*.......................................................................................................... **44**

***44 günlük Zəfər yolu***
*Səbuhi Quliyev*............................................................................................................... **51**

***44 günlük Zəfər tariximiz***
*Səbuhi Səfərov*........................................................................................................ **52**

***Tariximizin Zəfər Salnaməsi***
*Pərişan Yolçuzadə*.................................................................................................. **55**

***Böyük zəfər günü***
*Nahidə Qəhrəmanova*............................................................................................. **57**

## GİRİŞ SÖZÜ:

***Mobil Məcidov, dosent***
***ADPU-nun Ağcabədi filialının direktoru***

Azərbaycan xalqının 44 günlük Vətən müharibəsi zamanı mənfur düşmən üzərində möhtəşəm qələbə qazanması, uzun illərdən bəri işğal altında olan tarixi torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün, eləcə də tarixi ədalətin bərpa edilməsi, heç şübhəsiz, xalqımızın çoxəsrlik dövlətçilik tarixinin ən şərəfli səhifələrindən biridir. Tarix boyu təkrarlanmayacaq bu şanlı Zəfər tarixi bir də onunla yaddaqalan oldu ki, qonşu torpağına göz dikən, xalqın humanistliyindən, qonaqpərvərliyindən, etimadından, etibarından sui-istifadə edən ermənilərin iç üzünün açılıb, əsl simasının dünyaya tanıdılmasına imkan yaratdı. Dünya xalqları gördü ki, ermənilər yalan iddialarla bəşəriyyətə fəlakət və bəla gətirən faşist ideologiyasını utanıb çəkinmədən həyata keçirirlər. Uzun illərdir “soyqırıma məruz qaldığını” bəyan edib yazıq simasında dünyanın güc dövlətlərindən yardım dilənən ermənilər, nəhayət ki, gizlədikləri yırtıcı simalarını bəlli etdilər. Bu bir həqiqətdir ki, tarix boyu ermənilər azərbaycanlılara və türklərə qarşı amansız olmuş, insanlığa sığmayan terror aktları, dəhşətli soyqırımları törətmişlər. Bu millətin mayası sanki qəddarlıqdan yoğrulub. Ağsaqqala, ağbirçəyə, azyaşlı uşaqlara belə rəhm etməyən ermənilərin törətdikləri vandalizm aktları alman faşizmini də kölgədə qoymuşdur.

44 günlük Vətən Müharibəsi Azərbaycan xalqının haqq davası idi. Cəmi 44 gün sürən, tarixin ən qısamüddətli, həmçinin haqqın, ədalətin təntənəsi ilə yekunlaşan bu müharibə nəinki Azərbaycan xalqının, bütövlükdə haqqı əlindən alınıb susdurulan bütün xalqların qələbəsi idi.

Müharibənin qızğın günlərində yaşanan dəhşətli hadisələr bütün dünyanı sarsıtsa da, xalqımız döyüş ruhunu, birliyini və iradəsini itirməyərək əzm və mərdanəliklə Ali Baş Komandanı və ordumuzu dəstəkləməyə davam etdi. Həyatını itirmiş mülki həmvətənlərimizin qisasını isə rəşadətli ordumuz döyüş meydanında müvəffəqiyyətlə aldı. Müasir hərbi texnikaya yiyələnən, son nəsil silahlara sahib olan Azərbaycan Ordusu tarixi, əzəli torpaqlarımızı işğaldan azad etmək uğrunda beynəlxalq hüquq çərçivəsində legitim döyüşlər apardı və böyük Zəfərimizi xalqımızın tarixinə həkk etdi.

Zəfər tariximizin yazıldığı o əzəmətli gündən iki il ötür. Bu şanlı tarixi gün ölkəmizin hər yerində böyük sevinc və coşğu ilə qeyd edilir. Biz də Ağcabədi filialı olaraq Zəfərimizin ikinci ildönümünü qeyd etmək üçün tədbirlər planı hazırlamış və bu plana müvafiq olaraq ardıcıl tədbirlər həyata keçirmişik. Hesab edirik ki, bu tədbirlər sırasında Zəfər gününə həsr olunmuş “Zəfər günü Azərbaycanın şanlı tarixidir” mövzusunda keçirilən elmi-praktiki konfransın özünəməxsus yeri olacaqdır.

Odur ki, konfrans iştirakçılarına və konfransın işinə uğur diləyərək “Zəfər günü Azərbaycanın şanlı tarixidir” adlı elmi-praktiki konfransı açıq elan edirəm.

## VƏTƏN MÜHARİBƏSİNDƏKİ ZƏFƏR TARİXİMİZİN ŞANLI SƏHİFƏSİDİR

***Məhəmməd Hüseynov***
***“İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası” kafedrasının dosenti***

**Açar sözlər:** *Vətən müharibəsi, zəfər, sərkərdə, Ali Baş Komandan, erməni faşizmi, Azərbaycan ordusu*

2020-ci ilin 27 sentyabrından 10 noyabr tarixinə qədər davam edən 44 günlük Vətən müharibəsi Azərbaycanın böyük Zəfəri ilə başa çatdı, ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Qüdrətli Ordumuzun 2020-ci il sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Cəbrayıl şəhəri və 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olunub.

Ümumilikdə qələbənin təqviminə nəzər salmaq, o tarixi, fərəh dolu günləri yenidən xatırlamaq yəqin ki, oxucuların ürəyindən olar.

27 sentyabr: Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri. Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri. Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər.

3 oktyabr: Tərtər rayonunun Suqovuşan və Talış kəndləri. Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi.

4 oktyabr: Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli,Yuxarı Maralyan, Çərəkən, Daşkəsən Horovlu, Decal, Mahmudlu və Cəfərabad kəndləri.

5 oktyabr: Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri.

9 oktyabr: Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi. Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri. Füzuli rayonunun Yuxarı Güzlək, Gorazıllı kəndləri. Tərtər rayonunun Çaylı kəndi.

14 oktyabr: Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri. Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri.

15 oktyabr: Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çıraquz kəndləri. Füzuli rayonunun Arış kəndi. Cəbrayıl rayonunun Doşulu kəndi.

16 oktyabr: Xocavənd rayonunun Xirmancıq, Ağbulaq, Axullu kəndləri.

17 oktyabr: Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı Dədəli kəndləri və Füzuli şəhəri.

18 oktyabr: Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı.

19 oktyabr: Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri.

20 oktyabr: Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri. Füzuli rayonunun Dördçinar, Kürdlər,Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri. Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri. Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri.

21 oktyabr: Zəngilan rayonunun Micivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçünçü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri. Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri. Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri.

22 oktyabr: Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi. Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri. Füzuli rayonunun Mollavəli,Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri.

23 oktyabr: Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri.

Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xəlfəli, Minbaşılı və Veysəlli kəndləri.

Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri.Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri.

25-26 oktyabr: Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli,

Rəbənd, Yenikənd kəndləri. Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri. Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri.

28 oktyabr: Zəngilan rayonunun Birinci Ağalı, İkinçi Ağalı, Üçünçü Ağalı, Zərnəli kəndləri. Füzuli rayonunun Mandılı kəndi. Cəbrayıl rayonunun Qazanzəmi, Xanabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri. Qubadlı rayonunun Qiyaslı, Əblicə, Qılıcan kəndləri.

30 oktyabr: Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri. Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri. Zəngilan rayonunun Aladin,Vejnəli kəndləri.

2 noyabr: Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri. Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri. Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri.

4 noyabr: Cəbrayıl rayonuunun Mirək, Kavdar kəndləri. Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri. Qubadlı rayonunun Başarat, Qarkişilər, Qaracallı kəndləri.

7 noyabr: Füzuli rayonununYuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri. Cəbrayıl rayonunun Yuxarı Məzrə,Yanahac kəndləri. Qubadlı rayonunun

Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri. Zəngilan rayonunun Beşdəli kəndi. Xocalı rayonunun Qarabulaq, Moşxmaat kəndləri. Xocavənd rayonunun Ataqut, Tsakuri kəndləri.

8 noyabr Şuşa şəhəri Qobu Dilağarda,Yal Pirəhmədli,Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Hacılı, Hüseynbəyli, Saracıq kəndləri. Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığınaq, Şuşakənd, Muxtar, Daşaltı kəndləri. Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, MetsTağalar, Salakətin, Zoğalbulaq, Aragül, Tağaverd, Böyük Tağaverd, Zərdanaşen, Şəhər kəndləri. Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşağı Məlikli, Niftalılar, Qərər, Çələbilər kəndləri. Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli kəndləri. Zəngilan rayonunun Keçikli, Ördəkli, Sobu, Qaragöz, İsgəndərbəyli kəndləri, Bartaz qəsəbəsi. Laçın rayonunun Güləbürd,Səfiyan, Türklər kəndləri düşmən əsarətindən azad olunub.

10 noyabr: Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatına əsasən münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub.

Noyabrın 10-da Ermənistan məcburiyyət qarşısında kapitulyasiya aktına imza atıb. Kapitulyasiya aktına görə, bir güllə atmadan noyabrın 20-si Ağdam və 25-i Kəlbəcər, dekabrın 1-i isə Laçın rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı orada qaldırıldı. Beləliklə, Azərbaycan müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazanıb.

Vətən müharibəsinin ilk günlərindən, ilk saatlarından etibarən qardaş Türkiyənin Azərbaycana dəstəyi müharibənin aqibətini müəyyən etmiş həlledici amillərdən biridir. Türkiyə Prezidentinin ilk anlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir.

44 günlük müharibənin hər günü növbəti ərazilərimizin işğaldan azad olunması ilə yekunlaşdırdı. Azərbaycan Ermənistanı məğlub etdi, işğala son qoydu. 44 günün hər günü şanlı tarixdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın.

Müharibə dövründə Prezident İlham Əliyev tərəfindən səsləndirilən nitqlər öz emosionallığı ilə fərqlənirdi. Bu məqamlarda ürəkdən səslənən, xalqın hisslərini əks etdirən hər bir söz, hər bir fikir xalqın hafizəsinə əbədi həkk oldu. Dövlət başçısının gələcəyə ümid dolu sözləri insanları itkilər qarşısında sönməməyə, əksinə qürürla durmağa ruhlandırdı. Prezident İlham Əliyevin xalqa müraciətlərində düşmən tərəfə ünvanladığı mesajlar bu gün əhalinin dilində əzbərə çevrilib. Vətəndaşlar müharibə dövründə Prezidentin simasında artıq ölkəni idarə edən rəsmi şəxslə bərabər, doğma insan, xalqının

yenilməz övladını görürdülər. Prezident İlham Əliyevin müharibə ilə bağlı nitqlərini və çıxışlarını bütün ölkə əhalisi təqdir etdi.

Qalib Ordunun qəhrəman hərbiçiləri haqqında danışarkən hər birimiz qürur hissi keçiririk. Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qədəm qoyan Azərbaycan Silahlı Qüvvələri bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz xalqına Qələbəni bəxş etmiş müzəffər Orduya çevrilmişdir. Aparılan uğurlu siyasət və görülən davamlı tədbirlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Ordumuzun müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, ordumuzun döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılığın azaldılması-bütün bunlar məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsidir. Ölkənin hərbi potensialı dayanmadan artır. Azərbaycan Ordusu Cənubi Qafqazın ən qüdrətli ordusudur. Azərbaycan Ordusu döyüş hazırlığına görə Müstəqil Dövlətlər Birliyi (MDB ) məkanında ön sıralarda gedir. Ötən 17 ildə ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, Silahlı Qüvvələrdə aparılan islahatlar və bunun nəticəsi olaraq baş verən keyfiyyət dəyişiklikləri Müzəffər Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğundakı davamlı işinin nəticəsidir. Azərbaycan Ordusu maddi-texniki təchizat, döyüş hazırlığı və döyüş ruhu baxımından tam üstünlüyə malikdir. Ordumuz istənilən tapşırığı yerinə yetirmək iqtidarındadır. Azərbaycan əsgər və zabit yüksək mənəvi psixoloji keyfiyyətlər göstərir.

Əldə olunan böyük Qələbə ilə Ermənistanın işğalçılıq siyasətinə son qoyuldu. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Müxtəlif dairələrdən olan müntəzəm təzyiq və təhdiqlərə rəğmən Azərbaycan öz haqq savaşında zəfər çaldı. Bu zəfər sayəsində “Ermənistanın güclü ordusu” və “erməni xalqı döyüşkən xalqdır” kimi miflərə birdəfəlik son qoyuldu. Azərbaycan Ordusu döyüş meydanında özünün üstünlüyünü sübut etdi. İşğal edilmiş ərazilərin xeyli hissəsi bir ay ərzində azad olundu. Bu gün Azərbaycan Ordusu dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilir. Ölkənin hərbi potensialının dəyərləndirilməsi ilə məşğul olan qurumların
vaxtaşırı dərc etdiyi reytinqlərə əsasən, Azərbaycan Ordusu dünyanın aparıcı 50 ordusu sırasındadır.

Vətən müharibəsində Qələbə münasibətilə medal və ordenlərin təsis olunması qələbənin əbədiləşdirilməsi və iştirakçılara ayrılan ali diqqətinin təcəssümüdür. Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması, Vətən müharibəsində Qələbə münasibətilə medal və ordenlərin təsis olunması,

qələbənin əbədiləşdirilməsi və iştirakçılara ayrılan ali diqqətinin təcəssümüdür. Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət nümayiş etdirmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrin hərbi qulluqçuları Prezident, Müzəffər Ali BaşKomandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunublar. Vətən müharibəsində qələbə

münasibətilə “Zəfər” və “Qarabağ” ordenləri, həmçinin 15 yeni medal – “Vətən Müharibəsi Qəhrəmanı”, “Cəsur döyüşçü”, “Döyüşdə fəqlənməyə görə”, “Suqovuşanın azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Zəngilanın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə”, “Ağdamın azad olunmasına görə”, “Laçının azad olunmasına görə”, “Vətən müharibəsi iştirakçısı” və “Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə” medalları təsis olunub.

Bu gün ölkəmizdə keyfiyyət etibarilə yeni inkişaf dövrü başlanıb. Azərbaycanın tarixində yeni səhifə başlanır. Azərbaycanın quruculuq missiyası başlanır. Bundan sonra Azərbaycan yalniz inkişaf edəcək. Azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq. Hər bir vətəndaşımız bu məsələlərdə fəal olmalıdır.

**Xülasə**

Məqalədə göstərilir ki, 44 - günlük Vətən müharibəsi dövründə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu tarixi qələbə əldə etdi. Bu zəfər tariximizə şanlı səhifə kimi daxil oldu.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Qalib Sərkərdə. Bakı, 2021.
2. Zəfər Günü. Bakı, 2021.
3. Azərbaycan Bu gün. Bakı, 2021.

## ŞUŞA - ŞƏHƏR MƏDƏNİYYƏTİNİN NADİR İNCİSİDİR

***Tahir Kərimli, b/m.***
***“Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası” kafedrasının müdiri***
***tahir.kerimli52@mail.ru***

***Açar sözlər:*** *Pənahabad, Şuşa, məhəllə, saray, imarət, məscid, abidə, məqbərə, malikanə, karvansaray.*

Qarabağ xanlığının yaradılması Pənahəli xan Cavanşirin yaradıcılıq dühasının rəmzi, ilk şah əsəri idisə, 270 illik tarixi olan Şuşa şəhəri onun ikinci şah əsəridir.

Tədqiqatçı Vasif Quliyev yazır: “O, talançı, viranedici, üzücü müharibələrə tamamilə son qoymağa çalışır, sonrakı ömrünü Qarabağın yalnız iqtisadi tərəqqisinə, mənəvi, siyasi, hərbi yüksəlişinə, maarifinin, mədəniyyətinin inkişafına həsr etmək, tarixin üfüqlərindən hələ təzə-təzə boylanan Pənahabad qalasını Şərqin ən gözəl və zəngin şəhəri etməklə laləzara, gülüstana döndərmək, eləcə də vahid elmi fikir mərkəzinə çevirmək istəyirdi. Ona görə də məqsədinə daha tez çatmaq üçün

Qalanı rəsmən paytaxt etmək barədə fərman verdi və tezliklə xanlığın iqamətgahını, sarayını, divanını, diplomatik heyətini Şahbulaqdan Pənahabada köçürtdü. Üstəlik, Qarabağ əhalisinin seçmə hissəsini-zəka sahiblərini, ən yaxşı, ən kamil, ən mahir sənətkarları, bəyləri, iri tacirləri, varlı və zəngin şəxsləri də burda məskunlaşdırdı. Eyni zamanda yaxın-uzaq ellərdən, xüsusən, Arazın o tayından savadlı, elmli adamları öz gənc paytaxtında yaşamağa səslədi. Qalanın şöhrətinin günü-gündən artıb-yayılması da öz növbəsində, ətraf vilayətlərdən və şəhərlərdən çoxlu sənət və peşə ustalarının Pənahabada axışıb gəlməsinə səbəb oldu”.

Müdrik, ağıllı, uzaqgörən şəxsiyyət olan Pənahəli xan bəzən də haqqında eşitdiyi adlı-sanlı sənətkarları özü sarayına dəvət edirdi. Onun dəvətini məmnuniyyətlə qəbul eləyib, ailəliklə bu qalada kök salan onlarla şair, musiqiçi, rəssam, xəttat, memar... sənət ənənələrini də özləri ilə gətirməyi unutmurdular. Pənahabadın ilk sakinləri sırasına qatılan neçə-neçə təbrizli, ərdəbilli, ordubadlı, irəvanlı, şamaxılı, dərbəndli, gəncəli...çox çəkmədən möhkəm qranit qaya üzərində ucalan bu məğrur qalanın “vətən daşı”na çevrildilər.

Qalanın təzə sakinlərinin yaşayışı üçün Pənahəli xanın göstərişi ilə hər cür şərait, rahatlıq, dəbdəbə yaradılmışdı. Təzə gələnlərin üz-gözləri az bir vaxtda bu diyara elə alışmış, bu yurda elə öyrəşmişdi ki, onlar özlərini bir-birinə qaynayıb-qarışmış doğma adamlar kimi hiss edirdilər. Yerli sənətkarlarla əl-ələ, baş-başa verərək şəhərlərinin tərəqqisi, inkişafı yolunda yaşayıb-yaradan, bacarıq və qabiliyyətlərini göstərməklə Qarabağ mədəniyyətinə öz ilk töhfələrini verirdilər. Bu vəhdətin və tərəqqinin nəticəsidir ki, Pənahavad təkcə siyasi paytaxt yox, eyni zamanda ədəbi və mədəni bir mərkəz kimi tanındı.

Şuşa şəhərində 17 məhəllə var idi ki, onların hər birinin məscidi, bulağı və hamamı mövcud olmuşdur. Pənahəli xanın hakimiyyəti illərində (1747-1763) şəhərin salınmasının ilkin mərhələsində ən qədim məhəllələr sonralar şəhərin relyefinə uyğun olaraq “Aşağı məhəllə” adlandırılmışdır. “Aşağı məhəllə” Seyidli, Çöl Qala, Çuxur Məhəllə, Quyuluq, Dördlər Qurdu, Qurdlar, Merdinli, Hacı Yusifli, Culfalar adlanan 9 məhəllədən ibarət idi.

Şuşanın bir şəhər kimi formalaşmasının ikinci mərhələsi isə İbrahimxəlil xanın hakimiyyəti illərinə (1763-1806) təsadüf edir. Bu mərhələdə Saatlı, Mamayı, Köçərli, Xocamircanlı, Ağadədəli, Dəmirçilər, Təzə Məhəllə, Hamamqabağı kimi 8 məhəllədən ibarət “Yuxarı məhəllə” təşkil edilmişdir.

Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biridir. XVIII əsrin 80-ci illərində şəhərin əhatəsinə möhtəşəm qala divarları çəkilib başa çatdırıldı. Bu dövrdə şəhərdə çoxsaylı sənətkar məhəllələri, ticarət daha sürətlə inkişaf edirdi. Şuşalı tacirlər Təbriz Tehran, İsfahan, İstanbul, Bağdad, Səmərqənd, Moskva, Leypsik, London, Mançester, Marsel və başqa şəhərlərlə ticarət əlaqələri saxlayırdı. Şəhərdə “Pənahabadi” adlı gümüş sikkələr zərb edilirdi.

Məşhur rəssam V.Vereşşagin Şuşanı görəndən sonra yazmışdı: “Bu şəhərin evləri düzgün formalı, qəşəng və hündür olub, çoxsaylı və gözəl pəncərələrlə işıqlandırılır. Qayalıqlar qoynunda yerləşən bu şəhər elə həmin qayalıqlardan götürülmüş daşlardan tikilmişdir. Şəhərin bütün küçələrinə enli daş pilitələr döşənmiş, evlərin damları tirlərdən düzəldilmişdir”.

XIX əsrin ikinci yarısında Şuşada tikinti işləri daha geniş vüsət almışdı. Xurşudbanu Natəvanın, Gövhər ağanın, Cəfərqulu xanın, Uğurlu bəyin, Fərzəli bəyin, Nəcəfqulu ağanın, Hasıqulunun, Səfi bəyin tikdirdiyi yeni tipli saray və imarətlər şəhərə xüsusi gözəllik verirdi. Dövlət tərəfindən əsası qoyulan bir sıra məktəb binaları, Qarabağın imkanlı adamlarının sayəsində ucaldılan məscid və hamamlar o zamankı memarlıq abidələrinin ən gözəl nümunələrindən sayılırdı.

1977-ci ildə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə “Şuşa şəhərinin tarixi hissəsini tarixi-memarlıq qoruğu elan etmək haqqında qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Şuşa ictimaiyyəti ilə keçirdiyi görüşdə Heydər Əliyev tövsiyyə edərək demişdir: “Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır. Həmin illərdə Ümummilli lider Heydər Əliyevin Şuşaya göstərdiyi diqqət və qayğı daha da artmış və geniş quruculuq işləri vüsət almışdır. Belə ki, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə tikilmiş və 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında Heydər Əliyev Şuşada şairin məqbərəsini böyük təntənə ilə açmışdır. Onun Molla Pənah Vaqifə bu münasibəti bir tərəfdən milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən diyarın tarixini, əhalisini, etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Əslində, bu məqbərə, eyni zamanda, gözəl memarlıq abidəsi idi. Heydər Əliyev abidənin tikintisini böyük, əlamətdar hadisə hesab edirdi. Ümummilli liderin Molla Pənah Vaqifin məqbərəsinin açılışında söylədiyi nitq onun Qarabağa qayğısının göstəricisi idi. Bununla yanaşı, səfər zamanı Heydər Əliyev Şuşada Poeziya evini açaraq, Vaqif poeziya günlərində iştirak etdi. Heydər Əliyev Üzeyir bəy Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış olmuş və onların qorunmasına dair tövsiyyələrini vermişdir. Bu tarixi səfər zamanı Şuşadakı abidələrin bərpa işləri ilə maraqlanan Heydər Əliyev müvafiq göstərişlər verərək işlərin davam etdirilməsinə dair bir sıra təkliflərini də söyləmişdir. Ümummilli liderin, eyni zamanda, Şuşa məscidinə getməsi bir tərəfdən, onun dini dəyərlərə olan ehtiramının və dərin bağlılığının göstəricisi idisə, digər tərəfdən azərbaycanlı əhalini milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə idi. Heydər Əliyev erməni millətçilərinin ona müxtəlif böhtanlar atdığı bir zamanda məscidə getməklə yerli əhaliyə dini inanclarını qorumağı da tövsiyyə etmişdi.

1982-ci il iyulun 29-dan avqustun 2-sinədək Qarabağa bir il içərisində

“

ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada şairə Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu. Qeyd etmək lazımdır ki, bir ildə iki dəfə Şuşaya gedərkən ailəsi ilə birlikdə yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı. Bu addımı ilə ümummilli lider ziyalıları Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, Şuşaya tez-tez gəlmələrini tövsiyyə edirdi.

1992-ci il mayın 8-də Şuşanın Ermənistan silahlı qüvvərəri tərəfindən işğalı nəticəsində rayonun 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4

kinoteatr, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.

Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 850-dən çox yaşayış binası və 300-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B. Haqverdiyevin, Q.B. Zakirin, M.M. Nəvvabın, S.S. Axundovun, N.B. Vəzirovun, Y.V. Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, tarzən Sadıqcanın evləri, Realnı məktəbin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağılmış və məhv edilmişdir.

2020-ci il noyabrın 8-də Prezident, Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində bütün dünyaya bəyan etdi:

“Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandir!”

Qarabağın tacı olan Şuşa şəhərinin zirvəsində dalğalanan üşrəngli bayrağımızın əzəməti çox qürurverici olmaqla yanaşı, bu qələbədə əməyi olan hər kəsə qarşı minnətdarlıq duyğularımızı ünvanına çatdırmaq üçün daha da pərvazlandırır. Heç şübhəsiz ki, erməni işğalından azad edilmiş bütün müqəddəs yerlərimiz kimi gecələrində ulduzlar sayrışan, gündüzləri günəş şəfəqli Şuşa şəhəri də onu sevənlər, qurub- yaradanlar, Şuşanın tarixi, strateji və mədəni dəyərini dərk edənlər tərəfindən dünyaya nümunə olacaq səviyyədə yenidən bərpa ediləcəkdir.

Ali Baş Komandanın müdrik rəhbərliyi və fatehlərimizin misilsiz qəhrəmanlığı nəticəsində Şuşa azad olunandan dərhal sonra dahi Üzeyir Hacıbəyovun, Bülbülün və Xurşidbanu Natəvanın güllələnmiş büstləri şəhərin “Bazar başı” adlanan hissəsində qoyuldu, “Govhər ağa” məscidi yenidən bərpa edildi, M.P.Vaqifin büstü bərpa olundu, Bülbülün ermənilər tərəfindən darmadağın edilmiş ev muzeyi yenidən bərpa edilərək xalqın xidmətinə verildi.

Prezident İlham Əliyevin 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi.

2021-ci il mayın 12-13-də bənzərsiz Cıdır düzündə “Xarı bülbül” musiqi festivalı keçirildi. 2021-ci il avqustun 30-da Vaqif Poeziya Günləri Şuşa şəhərində Heydər Əliyev fondu tərəfindən təşkil

olundu. 2021-ci il sentyabrın 18-də ilk dəfə Şuşada Milli Musiqi Günü çərçivəsində Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının konserti keçirildi. Bütövlükdə Şuşa mədəniyyət tədbirlərinin, Beynəlxalq konfransların, simpoziumların, siyasi müzakirələrin keçirildiyi, bərpa və quruculuq işlərinin sürətlə həyata keçirildiyi bir mərkəzə çevrildi. 2022-ci il Prezidentin fərmanı ilə Şuşa ili elan edilmişdir.

**Xülasə**

Məqalədə Şuşa şəhərinin yaranması, tarixi memarlıq abidələri və erməni işğalı nəticəsində dağıdılmış yurd yerləri və şəhərin işğaldan azad edilməsindən sonra görülən bərpa-quruculuq işlərindən bəhs edilir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. T. Kərimli. “Mir Möhsün Nəvvab Qarabağinin həyatı, maarifçilik fəaliyyəti və pedaqoji görüşləri”. Bakı, ADPU-nun nəşriyyatı, 2021, 149 səh.
2. E. Əhmədov. “Şusa. Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı”. Bakı, “Zərdabi Nəşr” MMC, 2021. 179 səh.
3. Şuşanın dastanı.

## ŞANLI AZƏRBAYCAN ORDUSU QƏLƏBƏMİZİN TƏMİNATÇISIDIR

***Seymur Süleymanov, dosent***
***Tədris və elmi işlər üzrə direktor müavini***
***seymursuleymanov71@mail.ru***

***Açar sözlər:*** *xalq, ordu birliyi, inam, hərbi birləşmələr, müharibə, azadlıq, döyüş texnikası, sərhədlərin toxunulmazlığlı*

Uzun illər öncə ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər zaman keçdikcə ordumuzu güclü ordular sırasına çıxarmışdır. O ordu güclüdür ki, onun müasir silahları, texnikaları var, əsgəri-məişət kompleksləri müasir tələblər səviyyəsindədir və şəxsi heyətinin döyüş ruhu yüksəkdir. Bunları Azərbaycan Silahlı Qüvvələrinin ölkə ərazisində yerləşən ordu, birləşmə, hissə və bölmələrinin timsalında görmək mümkündür. Güclü ordusu olan ölkə həm döyüş meydanında, həm də siyasi proseslərdə öz sözünü deyə bilir. Bu gün Azərbaycan ordusu dövlətimizin və müstəqilliyimizin qarantıdır. Ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlər bunu əminliklə ifadə etməyə əsas verir. Respublika Prezidentinin ordunun inkişafına göstərdiyi qayğının nəticəsidir ki, bu gün Azərbaycan Ordusu dövrün tələblərinə cavab verən yüksək texnikaların istifadəsini uğurla həyata keçirir. Ölkədə sabitliyin qorunması, sərhədlərimizin toxunulmazlığının təmin edilməsi və işğal olunmuş torpaqlarımızın azad olunması daim ordumuzun qarşısında duran başlıca vəzifələrdən olmuşdur. Bu vəzifələri yaxşı dərk etdiyindəndir ki, uzun illər boyu döyüş əmri gözləyən qəhrəman

əsgərlərimiz, nəhayət 44 günlük müharibədə Azərbaycan xalqının 30 illik həsrətinə son qoydu. Ordunun Ali Baş Komandanı cənab İlham Əliyevin zamanında verdiyi qərarlar, hadisələrin inkişafını öncədən görməsi və müvafiq tədbirləri həyata keçirməsi sayəsində sanki ordumuzun gücünə güc qatmış oldu.

Düşməni tarixi məğlubiyyətə uğradan ordumuz torpaqlarımızın işğaldan azadedilməsi istiqamətində canı və qanı ilə döyüşdü, böyük şücaət göstərdi.

Ali Baş Komandanın qətiyyətli iradəsindən, xalqımızın möhtəşəm dəstəyindənilhamlanan Azərbaycan Ordusu cəbhənin bütün istiqamətlərində düşmənə sarsıdıcı zərbələr endirdi.

Son 18 ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün sahələrdə, o cümlədən müstəqilliyimizin, suverenliyimizin qarantı olan ordumuzun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması yönündə önəmli addımlar atıb. Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusundan biri hesab olunur.

Azərbaycan Ordusunun bugünkü səviyyəyə çatmasının təsadüfi olmadığını vurğulayan Ali Baş Komandanımız haqlı olaraq bildirib: “Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır”.

Azərbaycan Ordusu Aprel döyüşlərində olduğu kimi, 44 günlük – tarixdə ən qısa, lakin böyük qələbə ilə yekunlaşan müharibədə yüksək vətənpərvərlik nümayiş etdirərək, qəhrəmanlıq salnaməsi yaratdı. Bu gün hər bir vətəndaş hərbçilərimizin peşəkarlığına, ordumuzun gücünə güvənir.

Ermənistan və ona havadarlıq edən qüvvələr də ordumuzun gücünü və qüdrətini artıq yaxşı bilir. Düşmən aydın şəkildə başa düşür ki, müasir Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Belə bir orduya sahib olan Ali Baş Komandanımız uzun illər ən yüksək tribunalardan münaqişənin həllində sülh danışıqlarının səmərə verməyəcəyi təqdirdə, işğal altındakı torpaqlarımızın hərbi yolla azad ediləcəyini qətiyyətlə bəyan etmişdi.

Bu gün xalqımız işğal tarixinin acısını deyil, Zəfər gününün sevincini yaşayır. Azərbaycan Ordusunun vətənpərvər, cəsur və mərd oğulları tərəfindən cəbhədə bir-birinin ardınca qazanılan uğurlar qalibiyyətimizin əbədiliyinin, müzəffər ordumuzun yenilməzliyinin əyani sübutu oldu. Hər bir Azərbaycan vətəndaşında olan ruh yüksəkliyi, orduya inam, qələbəyə əminlik hissi sarsılmaz Azərbaycan Ordusunu öz tarixi qələbəsindən fərəhlənməyə və qürurla danışmağa sövq edir. Cənab Prezidentimizin dediyi kimi, Azərbaycanın apardığı mübarizə haqq mübarizəsi idi, haqq davası idi.

Çünki işğala məruz qalan, bir milyondan artıq soydaşı qaçqın və məcburi köçkün vəziyyətində yaşayan, 20 faiz torpağı işğal altında olan, məhz xalqımız idi, Azərbaycan idi.

Bu gün güclü iqtisadi imkanlara, möhkəm beynəlxalq mövqeyə, qüdrətli orduya malik Azərbaycan Respublikası tarixi ədaləti bərpa etmək əzmində olduğunu bütün dünyaya dərk etdirdi. Artıq məmləkətimizə “yağlı tikə” kimi göz dikən güclü dövlətlər belə bu gücün, bu qüdrətin qarşısında tərəddüd etməkdədir. Azərbaycan xalqı və onun yenilməz ordusu tarixin sınağından alnıaçıq, üzüağ çıxdı. Azərbaycan hökuməti hər zaman olduğu kimi, bu gün də öz vətəndaşlarına arxalandığını sübuta yetirdi. Müharibənin qızğın çağında hadisələrin gedişatı ilə bağlı xalqa daim rəsmi məlumatların verilməsi, ordumuzun nailiyyətlərinin dərhal xalqın diqqətinə çatdırılması ölkə rəhbərinin xalqa sədaqətinin, öz xalqına hörmət və ehtiramla yanaşmasının bariz sübutu oldu. Xalq da öz növbəsində Vətənimizin işğaldan azad edilməsi yolunda canından keçməyə hazır olan Ordu və onun Ali Baş Komandanına etibar, inam nümayiş etdirdi. On minlərlə insanın orduya könüllü kimi yazılması, eləcə də təxribatlar zamanı öz evlərini tərk etməməsi Azərbaycanda xalq-ordu birliyi və orduya olan inamdan xəbər verdi. Bu gün Azərbaycan bütün dünyaya güclü dövlət və güclü ordusunun olduğunu nümayiş etdirir.

Bundan sonrakı vəzifələr işğaldan azad edilmiş torpaqlarımızın müdafiəsi və bərpa-quruculuq işlərinin aparılmasıdır ki, hər bir Azərbaycan vətəndaşı bu uğurda səfərbər olmalı, ana vətənimizin kəm gözlərdən qorunması, çiçəklənməsi naminə əlindən gələni əsirgəməməlidir. Bu işdə də xalq və ordu birliyi əsas amillərdəndir.

**Xülasə**

Məqalədə Azərbaycan ordusunun erməni faşizmi üzərində tarixi qələbəsinin rəhni kimi xalq – ordu birliyi əsas amil olaraq götürülmüş,
ölkəmizdə sabitliyin qorunması, sərhədlərimizin toxunulmazlığının təmin edilməsi və işğaldan azad edilmiş torpaqlarımızın bundan sonra müdafiə olunması ordumuzun qarşısında duran vacib məsələlər kimi qeyd olunmuşdur.

**İstifadə olunmuş ədəbiyyat:**

1. https://mod.gov.az › pre
2. https://ikisahil.az › post › 181553-tar...
3. http://tovuz-ih.gov.az ›

# MÜASİR AZƏRBAYCAN POEZİYASINDA QARABAĞ HADİSƏLƏRİNİN VƏ QƏLƏBƏMİZİN BƏDİİ ƏKSİ

***Vaqif Allahverdiyev, dosent***
***“Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası”kafedrasının müdiri***
***vaqif. allahverdiyev2021@gmail.com***

***Açar sözlər:*** *Qarabağ, poeziya, Azərbaycan, həsrət, poetik şair, vətən bütövlüyü, mövzu, zəfər.*

Bütövlüyün, vəhdətin izini, bəlkə də, sərhədlərdən silmək olar, amma yadlaşlardan, qandan yox. Odur ki, bu xalqın yaddaşından silinməyən “böyük bir həsrət ədəbiyyatını” yaradan müqəddəs Vətən məhəbbəti Azərbaycanı səciyyələndirən əsas mövzulardan biri olmuşdur. XIX əsrdə Türkmənçay, Gülüstan müqavilələri əsasında İranla car Rusiyası arasında bölünmüş hissə-hissə qonşulara verilmiş Vətən torpaqları əsrlər boyu bu xalqın dərd yükünə çevrilib, şeirlərdə kədər notları ilə səciyyələnmişdir.

Azərbaycan şeirinin Vətənə məhəbbət meyarı rolunu oynayan Cənub mövzusu 70-ci illərdə S. Rüstəm, B.Vahabzadə, B. Azəroğlu, Ə. Tudə, M. Gülgün və b. şairlərin yaradıcılığında öz əksini tapdı. 80-ci illərdə isə N. Xəzri, M. Araz, F. Qoca, S. Rüstəmxanlı, M. İsmayıl və başqalarının əsərlərində yeni bir keyfiyyətdə - Milli azadlıq problemlərinin əsas mövzusu kimi meydana çıxır.

80-ci illərin sonlarına doğru isə, Azərbaycan poeziyasının “Araz çayı”na “yeni daşqın”, “yeni bir sel” qoşdu.

Çoxu yelçəkənə oxşadıb səni,
Şimaldan cənuba onu tapdadı.
Ayırıb Təbrizi bölüb Göyçəni,
İndi də Qarabağ haqq-hesabdadır.

Artıq neçə yüz ildir Vətənin bütövlüyü parçalandı, hissə-hissə Zəngəzuru, Göyçəni, Başkeşidli və s. qonşulara pay verildi, xalq özü də ayrı düşdü, doğma elindən, bütövlüyündən.

Yazıldı taleyimiz
Bu torpağa,bu suya,
Yazıldı taleyimiz
Bir ədəbi yuxuya
Sərvətim məlhəm oldu
Yadların azarına
Azərbaycan qoyuldu
Hərracın bazarına
Sərhəd-sərhəd paylanıb
Tikə-tikə böldülər.

Bu misralar Qarabağlı şair Ə.Quluzadənin “Qarabağ oyunu” poemasındandır. Siyasət məngənəsinə düşən Azərbaycanın füsünkar Qarabağının ölüm olum faciəsini poetik dillə ifadə edən şair Vətənin ağrıları və faciəsi önündə fəryadla poeziya bulağı tək coşur.

Göyçə başdan-başa çənə büründü,
Zəngəzur elləri yandı odlara.
Yurdumuz beləcə tapdağa döndü,
Aran mənə qaldı, yaylaq dağlara.

Şairin qələmə aldığı bu poemada siyasət məngənəsinə düşən Azərbaycanın, onun bir parçası olan Qarabağın olum-ölüm taleyini poeziya dili ilə aydın ifadə etmişdir.

Qarabağ mahalı öz yuxusundan
Ayrılıb qalxıbdır aranlı-dağlı.
Qəzəblər sıyrılıb çıxaraq qından
Ədalət axtarır əliçıraqlı.

Bu dövrü səciyyələndirən ən tutarlı poetik nümunələri Z.Yaqub, X. Rza Ulutürk, N. Xəzri, Qabil, Ə. Əhməd, N. Kəsəmənli və b. yaratmışlar.

Çəkin Qarabağdan qara əlləri,
Kükrəyib qəzəbdən od tökər qanım.
Qarışsa yad elə bircə qarışım,
Özüm də torpağa qarışım gərək.
Çəkin bu torpaqdan qara əlləri,
Çəkin Qarabağdan qara əlləri.

Z.Yaqub isə

Neçə-neçə həqiqətim nağıldı,
Çox ocaqlar yandı, söndü dağıldı.
Ürəyimdə dərd təzədən doğuldu,
Zildə bəmi, bəmdə zili oyatdın.

Qarabağ mövzusunda yazmayan, bu müsibətdən doğan kədəri, fəryadı ifadə etməyə çalışmayan şair demək olar ki, yoxdur. B.Vahabzadə, N. Xəzri, S. Rüstəmxalı, Qabil, M.Yaqub, Ə. Əhməd. M. İsmayıl və b. ilə yanaşı, didərginliyin ağrısını öz taleyində yaşamış Eldar İsmayıl, Tahir Talıblı, Dünyamalı Məftun, Fərhad Vəlizadə, Məcnun Göyçəli, Aftandil Məmmədov, Flora Xəlilzadə və başqalarının qələmində də soydaşlarımızın iztirabları daha poetik, daha təsirli və ağrılıdır.

30 illik bir dövrdə yazılan bütün poetik əsərlərdə, o cümlədən nəsrdə, dramaturgiyada və bədii publisist yazılarda bir vətən sevgisi el-oba və yurd həsrəti duyulmaqdadır. Şair Ə.Əhmədin, Kərim Kərimlinin, Ə. Quluzadənin və b. yaradıcılığının demək olar ki, əksəriyyəti bu mövzuya, Qarabağa həsr olunmuşdur. Ə. Əhmədin “bu qılınc qınında pas ata bilməz”, Ə. Quluzadənin “Qarabağ oyunu” və s. digər irihəcmli əsərlərini oxuyarkən bu illərdə bir həsrət ədəbiyyatının yarandığını görürük.

Çünki adı çəkilən şairlərimiz və yazıçılarımız Qarabağ hadisələrinin, döyüşlərinin iştirakçısı olmuş və bu hadisələri görə-görə yazıb yaratmışlar. Nə qədər qəm, kədər motivləri ilə yüklənsələr də əsərlərinin sonunda bir nikbinlik, gələcəyə inam hissi duyulmaqdadır.

Bəli ağrılı, acılı, kədərli günlər artıq arxada qalmışdır. 44 günlük 2-ci Vətən müharibəsi müzəffər Ali Baş Komandan İ. Əliyevin uzaqgörən siyasəti, dəmir yumruğu və şanlı ordumuzun qəhrəmanlığı sayəsində işğal olunmuş torpaqlarımız düşməndən azad edildi. 8 noyabr tarixini xalqımız böyük sevinc hissi ilə zəfər günü kimi qeyd edir.

44 günlük müharibədə Ali Baş Komandanın dəmir yumruğu sayəsində qazanılmış qələbə, qəhrəman oğullarımızın, vətənpərvərlik ruhu ilə apardığı mübarizə, şəhidlərimizin döyüşlərdə göstərdiyi şücayət, onların vətən sevgisi indi ədəbiyyatımızın əsas mövzusudur. Qələbəmizə qədər yanıqlı kədər və qüssə motivləri üstünlük təşkil edən şairlərimiz indi zəfər günümüzü şanlı qələbəmizi poetik dillə vəsf ediblər. K. Kərimli, Ə. Quluzadə, Tapdıq Əlibəyli, Vahid Əziz və demək olar ki, qələbəmizin şahidi olan bütün şairlərimizin yaradıcılığı bu mövzuya həsr edilmişdir.

Tapdıq Əlibəylinin “Payız çöhrəsində yazdı 44 gün” şeirlər kitabı isə döyüşdən qalib çıxan xalqımıza ən böyük hədiyyə oldu.

Bürüsə də duman,çən Qarabağı,
Zəfər çiçəkləyib,bağrımın bağı.
Ruhumda illərin soyuq-sazağı,
Payız çöhrəsində yazdı 44-gün.
Zəfər ovudacaq torpağın ahın,
Qələbə rəhnilə açır sabahın
Torpaq bağışlamaz düşmən günahın
Günahkar cəzasın alan günüdür.

“Azərbaycandır Qarabağ” şeirinin müəllifi Vahid Əziz 44 günlük zəfər günü münasibətilə yazdığı şeirdə Türk Azərbaycan qardaşlığını poetik şəkildə belə işıqlandırmışdır.

Doğmadır torpağı daşı,
Türk övladı,vətəndaşı.
Ömrü günü can sirdaşı,
Biri alov, biri ocaq
Azərbaycandır Qarabağ.

Tanıyırlar boyumuzdan,
İrsimizdən soyumuzdan,
Su içər öz quyumuzdan
Biri gövdə biri budaq
Azərbaycandır Qarabağ.

Dünya-dünya olan gündən
Varlığımız ona vətən.
Biri ürək, biri bədən
Hər ikisi ulu torpaq
Azərbaycandır Qarabağ.

Baba adı odlar yurdu
Keşikçisi igid Ordu,
Biri alov, biri ocaq
Bizimdir bizim olacaq
Azərbaycandır Qarabağ.

Göründüyü kimi Qarabağ hadisələrinin ilk günündən qəhrəman döyüşçülərimiz, vətənpərvər oğullarımız kimi şair və yazıçılarımız da öz qələmini süngüyə çevirərək düşmənə qarşı mübarizə aparmış, öz əsərləri vasitəsilə bu acı həqiqəti dünya xalqlarına çatdırmışdır.

Gələcək nəsillər bu poetik əsərlər vasitəsilə xalqımızın başına gətirilən faciələri, torpaqlarımızın işğal olunmasını, vətən, torpaq uğrunda qan töküb şəhidlik zirvəsinə yüksələn qəhrəman oğullarımız tanıyacaq və onlarda vətən torpağını necə qorumaq, düşmənə qarşı barışmaz olmaq və s. kimi yüksək keyfiyyətlərin formalaşmasında mühüm rol oynayacaqdır.

Bundan sonra da ədəbiyyatımızda yeni-yeni, hər bir şəhidimiz, milli qəhrəmanımız haqqında əsərlər yazılıb və bu əsərlər əsasında kino filmlər çəkilib gələcək nəsillərə ötürüləcəkdir.

**Xülasə**

Müasir Azərbaycan poeziyasında ən aktual mövzulardan biri Qarabağ mövzusudur. Tarixən xalqımızın başına gətirilən faciələr, 1928 –cil il Türkmənçay müqaviləsi ilə bölünmüş vətən həsrəti, hissə-hissə torpaqlarımızın bölüşdürülüb qonşu dövlətlərə paylanması nəhayət məlum Qarabağ hadisələri, torpaqlarımızın 20 faizinin mənfur düşmənlərimiz tərəfindən işğal olunması, 20 yanvar faciəsi, Xocalı faciəsi və s. məsələlər müasir poeziyamızda geniş şəkildə əks olunmuşdur.

Şair Ənvər Əhməd, Ələmdar Quluzadə, Kərim Kərimli, B. Vahabzadə, X.R. Ulutürk, M. Araz və yüzlərlə şairlərimiz Qarabağ hadisələrini, 2-ci Qarabağ savaşını, qəhrəman vətən oğullarını, şəhidlərimizin keçdiyi tarixi zəfər yolunu bədii və obrazlı şəkildə poetik ifadələrlə gələcək nəsillərə ərmağan etmişlər.

Mövzu aktuallığı baxımından Qarabağ hadisələrinin bədii əksi müasir Azərbaycan ədəbiyyatının aparıcı qolunu təşkil edir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Y. Qarayev. “Tarix yaxından və uzaqdan”. Bakı, Sabah 1996.
2. M. İsmayıl. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1992.
3. Ə.Quluzadə. “Qarabağ oyunu”. Bakı, Azərnəşr, 1993.

4. N. Xəzri “Əsrin qanlı naləsi”. Bakı, Azərnəşr, 1995.
5. Z.Yaqub “Biz bir eşqin butasıyıq”. Bakı, Yazıçı,1989

## II QARABAĞ MÜHARİBƏSİ DÖVLƏTÇİLİK TARİXİMİZİN ƏN ŞƏRƏFLİ SƏHİFƏSİ

***Yaqub Səmədov***
***“İctimai, təbiət fənləri və onların tədrisitexnologiyası” kafedrasının dosenti***
***yaqub.semedov63@mail.ru***

***Açar sözlər:*** *uydurma erməni məsələsi, münaqişə, məskunlaşma, etnik tərkib, Zəfər bayramı.*

Süni yaradılan “erməni məsələsi” bir neçə yüz ildir ki, Qafqazı böyük münaqişə ocağna çeviribdir. Dünya gücləri də, öz maraqları naminə erməni amilindən istifadə edərək hər zaman ədalətsiz mövqey tutmuşlar. Döğurdan da, “erməni məsələsi”nin yaranmasının kökündə ilk növbədə, imperiyaların siyasi maraqları durmuş, yenə də durmaqdadır. Hətta, dövrün tarixi mənbələri “erməni məsələsi”ni ermənilərin inqilabçılığı və ya, azadlıqsevərliyi ilə əlaqələndirsə də, lakin həqiqətdə bunun “erməni məsələsi”nə heç bir aidiyyatı olmamışdı. Əksinə, ermənilər tarix boyu ən iyrənc üsullardan istifadə edərək zaman-zaman qonşu xalqların torpaqlarını zəbt etmiş, bunu “əsaslanırmaq” üçün, özünüküləşdirmək üçün saxta tarix yazmaqdan belə çəkinməmişlər.

Ermənilər Dağlıq Qarabağa həmişə xüsusi maraq göstərmişlər. Bunun səbəbi aydındır: çünki, erməni tarixşünaslığında belə bir saxta konsepsiya özünə möhkəm yer tutmuşdur ki, guya, bu bölgə tarixən ermənilərə məxsusdur.

1828-ci il mart ayının 21-də isə I Nikolay erməni vilayətinin yaradılması haqqında fərman imzaladı.

Beləliklə, hesablamalara görə, 1911-ci ildə Cənubi Qafqazda yaşayan 1.3 milyon erməni əhalisinin 1 milyionu həmin köçürmə nəticəsində buraya gəlmişdi. Amerika alimi Castin Makkarti ermənilərin Azərbaycana köçürulməsinə münasibət bildirərək qeyd edirdi ki, 1828- 1920-ci illərdə 2 milyondan çox müsəlman yaşadıqları ərazilərdən sürgün edilmiş, dəqiq məlum olmayan sayda insan isə öldürülmüşdür.

Tarixçilər qeyd etdiyi kimi, azərbaycanlıların indiki Ermənistandan (Qərbi Azərbaycandan) deportasiyası və köçürülməsi XVIII əsrdən başlanılmışdı. “Daşnaksütyun” partiyası isə (1890-ci ildə yaradılmış) əsrin sonlarından başlayaraq Azərbaycanın Kür çayından cənubda yerləşən əraziləri hesabına dənizdən-dənizə “böyük Ermənistan” dövləti yaratmaq siyasəti yürütmüş və məqsədinə nail olmaq üçün ermənilərin vahid səfərbərliyini təmin etməyə calışmışdır. Halbuki tarixi faktlar sübut edir

ki, ermənilər yerli xalq olmamış və onların Qafqaza kütləvi axını XIX əsrin əvvəllərindən baş vermişdir. Bunu 1978-ci ildə Ağdərə ərazisində ermənilərin bura köçürülməsinin 150 illiyi münasibətilə ermənilərin özləri tətəfindən inşa edilən abidə də sübut edir. Bu abidənin inşaası köçürülmənin şahididir, tarixin danılmaz reallığıdır. Bu reallığı erməni tarixçisi V.A. Parsamyan da etiraf etmişdir. O yazırdı: “Rusiyaya
birləşənə qədər Şərqi Ermənistanın 169 min 155 nəfər əhalisinin 57305 nəfəri, yaxud 33,8%-i erməni, 84089 nəfəri yaxud 49,7%-i müsəlman, 26911 nəfər, yaxud 16%-i kürd və 850 nəfər, yaxud 0,55%-i kənar millətlər idi”.

Erməniləri ilk dəfə Qafqaza köçürülməsində Rus çarı I Pyotrun 1724-cü il 10-u noyabr fərmanı mühüm rol oynadı. Səfəvilər dövlətinin zəifləməsindən istifadə edən I Pyotr bu fərmanla ermənilərin Azərbaycanın
Xəzər dənizi sahillərində, Dərbənd və Bakı, həmçinin, Mazandaran və Gürgan ərazilərində məskunlaşmasını rəsmiləşdirdi.

Əsası I Pyotr tərəfindən qoyulan bu siyasəti sonralar Rusiyanın digər çarları tərəfindən davam etdirildi. 1768-ci ildə II Yekaterina ermənilərin himayə edilməsi barədə əmr imzaladı. 1802-ci ildə çar I Aleksandr P.D.Sisianova yolladığı məktubunda yazırdı: “Hər nə olur-olsun ermənilərdən Azərbaycanın ... bu və ya digər xanlıqlarında istifadə olunmalıdır”. Rusiya imperiyası 18-ci əsrin sonlarından Azərbaycanın Xəzəryanı torpaqlarını işğal etməyə başladı. Bu proses 19-cu əsrin əvvəllərində daha da sürətləndi. 1813-cü ildə Rusiya və İran arasında Azərbaycanın bölüşdürülməsi ilə bağlı müqavilə imzalandı. 1828-ci il (mart ayının 20-də) Türkmənçay müqaviləsində “erməni məsələsi” artıq konkret maddə ilə ifadə olundu. Müqavilənin 15-ci bəndində ermənilərin adı çəkilməsə də, onların Cənubi Qafqaza köçürülməsi məsələsi nəzərdə tutuldu. Rus dövlətinin köçürmə siyasəti nəticəsində İrəvan və ətraf ərazilərin etnik tərkibi ciddi şəkildə dəyişdi. İşğalçılıq siyasəti nəticəsində Rusiya imperiyası ermənilərin simasında burada özünə etnk dayaq yaratdı. Ermənilərin kütləvi surətdə Azərbaycanın Naxçıvan, Qarabağ, İrəvan kimi bölgələrə köçürülməsi üçün əlverişli şərait yarandı. Anadolu və İrandan minlərlə erməni ailəsi Azərbaycanın əzəli torpaqları olan İrəvən, Qarabağ və ətraf ərazilərə köçürüldü.

1828-ci il mart ayının 21-də isə I Nikolay erməni vilayətinin yaradılması haqqında fərman imzaladı.

Beləliklə, hesablamalara görə, 1911-ci ildə Cənubi Qafqazda yaşayan 1.3 milyon erməni əhalisinin 1 milyionu həmin köçürmə nəticəsində buraya gəlmişdi. Amerika alimi Castin Makkarti ermənilərin Azərbaycana köçürulməsinə münasibət bildirərək qeyd edirdi ki, 1828- 1920-ci illərdə 2 milyondan çox müsəlman yaşadıqları ərazilərdən sürgün edilmiş, dəqiq məlum olmayan sayda insan isə öldürülmüşdür.

Tarixçilər qeyd etdiyi kimi, azərbaycanlıların indiki Ermənistandan (Qərbi Azərbaycandan) deportasiyası və köçürülməsi XVIII əsrdən başlanılmış və üç mərhələdə həyata keçirilmişdi. Birinci mərhələ 1905-1920-ci, ikinci mərhələ 1948-1953-ci, üçüncü mərhələ 1988-1992-ci illəri əhatə etmişdi.

Bu proseslər zamanı ermənilər Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan etmiş, 30 minə yaxın evi dağıtmış və yandırmışdı. Qoca, uşaq və qadınların da daxil olduğu 140 min insanı vəhşicəsinə qətlə yetirilmiş, 750 mindən artıq azərbaycanlı dədə-baba yurdlarından yəni, Qərbi Azərbaycandan didərgin salınmışd. Sonuncu deportasiya zamanı - 1988-ci ildə isə 220 mindən artıq azərbaycanlı erməni vəhşiliyinə tab gətirə bilmədiyindən, doğma yurd-yuvalarını tərk etmişdi. Bundan sonra ermənilər Qərbi Azərbaycandan azərbaycanlıların izini itirmək məqsədilə buradakı qəbiristanlıqları, tarixi-mədəni abidələri, dini məbədləri, məktəb, xəstəxana və digər binaları da yer üzündən silmişdilər. Təkcə 1988-ci ildən sonra Qərbi Azərbaycanda ermənilər azərbaycanlılara məxsus 2000-dən artıq qəbiristanlığı məhv etmişlər.

1992-1994-cü illərdə daha da gərginləşən Ermənistan-Azərbaycan münaqişəsi Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı genişmiqyaslı hərbi təcavüzü formasını almışdır. Xocalı şəhərinin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş işğalı xüsusi qəddarlıqla seçilən faciə kimi XX əsrin bəşəriyyətə qarşı cinayətlərinin qara siyahısına daxil olmuşdur ki, orada qoca, qadın və uşaq da daxil olmaqla, 613 dinc sakin vəhşicəsinə qətlə yetirilmişdir. Bu illərdə Laçın rayonu (18 may 1992-cil), Kəlbəcər rayonu (2 aprel 1993-cü il), Ağdam rayonu ( 23 iyul 1993-cü il, 23 iyul), Füzuli rayonu (23 avqust 1993-cü il), Cəbrayıl rayonu (23 avqust 1993-cü il), Qubadlı rayonu (31 avqust 1993-cü il), Zəngilan rayonu (29 oktyabr 1993-cü il) da erməni işğalçıları tərəfindən işğal edildi.

Nəhayət, əsrlərlə davam edən erməni azğınlığına lazımi dərs verməyin vaxtı gəlib çatdı. 27 sentyabr 2020-ci ildə başlanan və 44 gün davam edən II Qarabağ müharibəsi nəticəsində şanlı Azərbaycan ordusu Ali Baş Komandan İlham Əliyevin komandanlığı altında 4 oktyabrda Cəbrayılı, 17 oktyabrda Füzulini, 20 oktyabrda Zəngilanı, 25 oktyabrda Qubadlını və 8 noyabrda Şuşa şəhərini (2020-ci il) işğaldan azad etdi. Moskvada imzalanan müqaviləyə əsasən (10 noyabr 2020-ci il) bütövlükdə Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağdan və Azərbaycan ərazilərindən tam çıxarılması və yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi nəzərdə tutuldu.

Bu müharibədə qazanılan hərbi uğurların nəticəsi kimi 2020-ci il noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də Laçın rayonları da işğaldan azad edildi.

Yuxarıda deyilənləri yekunlaşdırıb belə bir nəticəyə gəlmək olar ki, İkinci Qarabağ müharibəsi–dövlətçilik tariximizin şərəfli və ən parlaq səhifələrindən biridir. Belə ki, Azərbaycan xalqının 44 günlük II Vətən müharibəsində əldə etdiyi bu qələbə sayəsində ərazi bütövlüyümüz tam şəkildə bərpa olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərancamı ilə hər il sentyabr ayının 27-si gününün Azərbaycan Respublikasında Anım Günü və həmin ildən başlayaraq hər il, noyabr ayının 8-i gününün Qələbə günü- Zəfər bayramı kimi qeyd olunması olduqca əlamətdar hadisələrdən hesab olunmalıdır. Həmin ildən başlayaraq xalqımız Zəfər gününü

böyük sevinclə və böyük qürur hissi ilə qeyd edir. Azərbaycan xalqı artıq gələcəyə böyük inamla baxır və bu yolda daha güclü və qətiyyətllidir.

**Xülasə**

Məqalədə ermənilərin Cənubi Qafqazda məskunlaşması- onun ağır nəticələri, bunun etnik proseslərə təsiri, erməni millətçilərinin xalqımıza qarşı həyata keçirdiri soyqırım siyasəti və b. məsələlər öz əksini tapmışdır. Məqalədə həmçinin II Qarabağ müharibəsi və onun əhəmiyyəti, ərazi bütövlüyümüzün bərpasında onun rolu və s. məsələlər də tutarlı faktlarla ətraflı şəkildə təhlil olunur.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Ə. Məmmədov. “Rusiyanın Qafqaz siyasətində erməni amili”. Bakı, 2001.
2. M. Qasımlı. “Erməni məsələsi”ndən “erməni soyqırımı”na: gerçək tarix axtarışında (1724-1920). Bakı, Mütərcim, 2014.
3. Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi. I cild. Bakı, 2012.
4. Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi. II cild. Bakı, 2012.
5. Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər). Müxtəsər xronoloji ensiklopediya. Bakı, “Elm”, 2003.
6. İ. Vəlizadə, B. Muradov. “Ermənistan azərbaycanlılarının soyqırımı”. Bakı, “Gənclik”, 1996.
7. M. A. Muradov. “Çar Rusiyasının Azərbaycanda işğalçılıq və köçürmə siyasəti (XIX əsrin I yarısında)”. Bakı, “Çaşıoğlu”, 1999.
8. T. Musayev. “Ermənilər və faciələrimiz (XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr)”. Bakı, “Nurlan”, 2008.

## QƏLƏBƏMİZİN TƏMİNATİ İSTİQAMƏTİNDƏ GÖRÜLƏN MÜHÜM İŞLƏR

***Sahib Zeynalov, dosent***
***“Riyaziyyat, informatika və onların tədrisi texnologiyası”kafedrasının müdiri***
***sahib.zeynalov.64@list.ru***

***Açar sözlər:*** *Müdafiə sənayesi, kosmik sənaye, uçuş aparatları, süni peyklər.*

Hörmətli tədbir iştirakçıları, hər birinizi salamlayıram.

Bildirirəm ki, mən 1982-ci ildə “Sovet Azərbaycanının 60-illiyi Adına Stepanakert Pedaqoji İnstitutuna daxil olmuşam. Təhsil aldığım müddətdə “Dağlıq Qarabağ” hadisələri baş vermişdir. Ona görə də şahidi olduğum yaxın keçmişə səyahət etmək istəyirəm.

Burada iştirak edən və vaxtı ilə həmin institutda dərs deyən müəllimlər və təhsil alan tələbələr bilir ki, ermənilər 1987-ci ildə Xankəndi şəhərində H.Ə. Əliyevin əleyhinə təbliğat kampaniyasına

başlamışdılar. Bu kampaniya bəzən bizim tələbələrlə erməni tələbələr arasında ciddi mübahisələrə səbəb olurdu.

Bildiyiniz kimi Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq, Heydər Əliyev 1987-ci ilin oktyabrında tutduğu vəzifələrdən istefa verdi. Bu istehfadan az sonra, yəni 16 noyabr 1987-ci ildə SSPİ Elmlər Akademiyasının üzvü, Mixail Qarbacovun İqdisadi Məsələlər üzrə müşaviri Abel Aqanbekyanın Fransada ermənilərlə görüşü zamanı bildirmişdir ki, “Dağlıq Qarabağ” Ermənistana qaytarılmalıdır. O qeyd edib ki, bu barədə təklifi SSRİ rəhbərliyi qarşısında qaldırıb və həyata keçirilməsinə ümid edir. Bu çıxışdan sonra Xankəndində yaşayan ermənilər daha da fəal təbliğata başladılar.

1988-ci ilin fevral ayının 13-də, həftənin VI günü, günün ikinci yarısında ermənilər ilk yığıncaqlarını “Sovet Azərbaycanının 60-illiyi Adına Stepanakert Pedaqoji İnstitutunda keçirdilər. Xankəndi şəhərində yaşayan milliyyətçə
erməni olan Azərbaycan vətəndaşları bir sıra xarici ölkələrin dəstəyi ilə 14 fevral 1988-çi ildə “Daqlıq Qarabağ Muxtar Vilayəti”-nin Ermənistana birləşdirilməsi şüarı ilə mitinqə çıxdılar.

Hadisələrin növbəti inkişaf mərhələsi bizim xeyrimizə olmadı. Ardıcıl olaraq kənd, qəsəbə və şəhərlərimiz Erməni silahlı dəstələri tərəfindən Xankəndində yerləşən 366-çı motaatıcı alayın köməyi ilə içğal olunmağa başladı. İşğalın başverməsinin əsas səbəbi olaraq mütəşəkkil ordunun, vahid komandanlığın və Respublikanı edarə etmək gücündə olan rəhbərin olmamasını qeyd etmək olar.

Ulu öndər xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra atəşkəs elan olundu. Atəşkəsdən sonrakı dövr Azərbaycan dövləti ciddi işlər apardı. Əsasən ordu quruculuğunda islahatlar başladı. Azərbaycan Ordusunun Nato standartlarına uyğunlaşdırılması istiqamətdə ciddi islahatlar aparıldı. Ordunun təchizatını təmin edən bir sıra hərbi müəssisələr birləşdirilərək 16 dekabr 2005-ci ildə Azərbaycan Respublikası Prezidenti Cənab İlham Heydər oğlu Əliyevin cərancamı ilə Hərbi Cənaye Nazirliyi yaradıldı.

Nazirlik müdafiə, radioelektronika, cihazqayırma sahəsində məhsulların dizaynı, istehsalı, tənzimlənməsi və saxlanmasına cavabdeh olan dövlət qurumudur. Yaramış nazirliyin ilkin planı Cənubi Qafqaz, Orta Asiya və Yaxın Şərqdə böyük silah istehsalçısı olmaq idi.

Nazirlik 2008-ci ilin yanvarında Azərbaycan Müdafiə Sənayesini zirehli personal daşıyıcıları və piyadaların döyüş maşınları, həmçinin kiçik çaplı topçu silah istehsalına başlayacağını elan etdi və qısa müddətdə buna nail oldu. Nazirlik Ukrayna, Belarus və Pakistanın müdafiə sənayesi sektorları ilə əməkdaşlıq edir. O cümlədən nazirlik İsrailin müxtəlif firmaları, Türk şirkətləri və Rusiyanın zavodları ilə əməkdaşlıq edir.

Nazirliyin fəaliyyəti sayəsində 2009 və 2010-cu illər arasında Azərbaycanın hərbi istehsalı iki dəfə çox artdı. Nazirlik “Cihaz İstehsalat Birliyi”-nin yenidən qurulması hesabına 2011-ci ildə Alət İstehsalı Zavodu açıdı. Həmin il Aerostar və Orbiter-2M pilotsuz uçuş aparatlarının isthsalı davam etdirildi. 2022 –ci ilin sentyabr ayında Nazirlik pilotsuz uçuz aparatlarının 7 növünü nümayiş etdirdi.

2016-cı ildə sənaye qısa mənzilli raket istehsalına başladı. Təqribən 125 növ məhsul hazırlanır, “hava-yer”, “hava-hava” və “yer-yer” raketlərinin
yaradılması layihələri həyata keçirilir. 14 fevral 2017-ci ildə minalara qarşı davamlı olan “Tufan” milli zirehli maşınların nümayişi oldu.

23 iyun 2017-ci il tarixdə Şərq İstehsalat Birliyi Zavodu açıldı. Zavod 4 növ qumbaraatan qurğuların mərmilərini və özlərini istehsal etməyə başladı. Artıq kiçik çaplı silahlarla təminatdan ixracatçıya çevrilmişdi.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi 13 mart 2021-ci il tarixdə Alman şirkətləri ilə müqavilə imzaladı.

Qrumun intensiv fəaliyyəti nəzicəsində Azərbaycan Silahlı Qüvvələrinin arsenalında müasir silahlar mövcuddur.

Qələbəmizin təmin olunması istiqamətində atılan digər mühüm addımlardan biri də “Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 4 noyabr 2008-ci il tarixli 27 nömrəli Sərəncamı oldu. Ardınca Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 17 avqust tarixli 443 nömrəli Sərəncamı ilə Dövlət Proqramı qəbul olundu.

2013-cü il fevralın 8-də Azərbaycan kosmosa Azerspace-1 adlı ilk süni peykini buraxdı.

Azərbaycan növbəti dəfə orbitə 2014-cü il iyunun 30-da Azersky adlı müşahidə peykini buraxıb. Peyk əsasən Azərbaycanın müdafiə və təhlükəsizliyinə xidmət edir.

Azərbaycanın üçüncü peyki olan Azerspace-2 2018-ci il sentyabrın 28-də kosmosa buraxılıb.

Qələbəmizin təminatı istiqamətində atılan çoxsaylı işlərin dəqiq yerinə yetirilməsi üçün uzun illər sərf olundu. Ali Baş Komandanın rəhbərliyi ilə dəqiq planlaşdırılmış əməliyyat öz nəticəsini verdi.

Azərbaycan Ordusunun yüksək taktiki, psixoloji hazırlığı və xalqımızın birliyinin nəticəsində torpaqlarımız 44 günlük antiterror əməliyyatından sonra işğaldan azad olundu.

Bu gün hörmətli Prezidentimizin səriştəsi, tükənməz səbri, qətiyyəti,
xalqa sevgisi sayəsində azad olunmuş torpaqlarımızda quruculuq işlərinə start verilib. Zəfər günü münasibəti ilə hər birinizi-bütün Azərbaycan xalqını təbrik edirəm.

Yaşasın rəşadətli Azərbaycan ordusu və Müzəffər Ali Baş Komandan. Tanrı Pezidentimizi qorusun.

**Xülasə**

Məruzədə 44 günlük ikinci Qarabağ müharibəsində Qələbəmizin təminatı istiqamətində Azərbaycan Respublikası Prezidenti Cənab İlham Heydər oğlu Əliyevin 2005-ci ildən başlayaraq apardığı mühüm işlər sadalanmış və ordu quruculuğunda aparılan islahatlar, Müdafiə Sənayesi Nazirliyinin yaradılması və Kosmik gəmilərimizin orbitə çıxarılması xüsusi ilə vurğulanmışdır.

**İstifadə olunmuş ədəbiyyat:**

1. https://mdi.gov.az
2. https://news.milli.az/politics/795889.html

3. https://president.az
4. https://azertag.az

## AZƏRBAYCANIN DİPLOMATİK MÜSTƏVİDƏ MÖHKƏMLƏNMƏSİ

***Baxış Ələsgərov, dosent***
***“İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası” kafedrasının müdiri,***
***elesgerov.adpu@mail.ru***

***Açar sözlər:*** *Azərbaycan diplomatiyası, Vətən müharibəsi, Ermənistan - Azərbaycan münaqişəsi, Qoşulma hərakatı, Zirvə toplantısı.*

Cənubi Qafqaz regionunun lider ölkəsi olan Azərbaycan həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən kursun və dərin strateji diplomatiya siyasətinin nəticəsi kimi, 2021-ci il də ölkəmiz üçün xarici siyasət sahəsində uğurlu oldu. Azərbaycanın strateji tərəfdaşlıq və dostluq münasibətləri inkişaf etdi, ənənəvi tərəfdaşlarla əlaqələri möhkəmləndi. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində qeyd etdi ki, biz beynəlxalq arenada öz mövqelərimizi möhkəmləndirdik: “Bizim beynəlxalq nüfuzumuz artdı, bir neçə beynəlxalq təşkilat çərçivəsində uğurla fəaliyyət aparmışıq”.

Prezident İlham Əliyevin Vətən müharibəsində qazandığımız hərbi-siyasi qələbənin diplomatik müstəvidə möhkəmləndirilməsi və strateji prosesə çevrilməsi istiqamətində yürütdüyü kurs postmüharibə dövründə mühüm nailiyyətlərin qazanılmasını - əhəmiyyətli irəliləyişlərə nail olunmasını şərtləndirib. Dövlət başçısı müxtəlif formatlarda görüşlərdə, beynəlxalq tədbirlərdə qalib Azərbaycanın haqlı və qətiyyətli mövqeyini, prinsipial yanaşmasını inamla diqqətə çatdırıb.

Ümumiyyətlə, ölkəmiz yeni şəraitdə - yeni reallıqlar fonunda regionda proseslərin tənzimlənməsi üçün həm vacib çağırışlarla, həm də müvafiq təklif və təşəbbüslərlə çıxış edib. Xüsusilə də, Azərbaycan regionda yeni nəqliyyat dəhlizinin yaranması - kommunikasiya xətlərinin bərpası ilə əlaqədar həm səmərəli, faydalı ideya və təkliflər irəli sürüb, həm də əməli addımlar atıb. Zəngəzur dəhlizinin həyata keçirilməsi istiqamətində görülən işlər bunun bariz nümunəsi - əyani təsdiqidir. Ümumiyyətlə, Azərbaycanın mövqeyi regional təhlükəsizlik və əməkdaşlıq müstəvisində tam adekvat yanaşma kimi xarakterizə olunur.

Bütün bu məsələləri nəzərə alaraq bir sıra məqamlara nəzər yetirmək yerinə düşər. İlk növbədə, bu istiqamətdə ötən il yanvarın 11-də Prezident İlham Əliyevin Moskvaya işgüzar səfərini xüsusi vurğulamaq gərəkdir. Səfər çərçivəsində Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüşün keçirilməsi, Birgə Bəyanatın imzalanması regionda proseslərin qalib Azərbaycanın şərtləri və üstün strateji mövqeyi

fonunda tənzimləndiyini bir daha təsdiqlədi. Bununla yanaşı, 2021-ci ilin noyabrın 26-da Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdə regionda sabitlik və təhlükəsizliyə dair məsələlər, Azərbaycan ilə Ermənistanın bir-birinin ərazi bütövlüyünü tanıması, iki tərəf arasında sülh müqaviləsinin imzalanması, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, həmçinin postmüharibə dövrünün reallıqları ilə bağlı digər bir sıra məsələlər haqqında mühüm fikirlər səsləndirildi. Üçtərəfli görüşdən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatla çıxış etdilər. Gözlənildiyi kimi, qalib Azərbaycanın Lideri - Prezident İlham Əliyev dəmir məntiq və yüksək diplomatik məharət nümayiş etdirdi, Azərbaycanın bəhs
olunan məsələlərlə əlaqədar prinsipial mövqeyini növbəti dəfə qətiyyətlə ifadə etdi. Dövlət başçısı Azərbaycanın bölgədə dayanıqlı sülhün, etibarlı təhlükəsizliyin və çoxşaxəli əməkdaşlığın təmin edilməsində maraqlı olduğunu, qarşıda duran vacib məsələlərin həllini tapmasının zəruriliyini nəzərə çatdırdı. Görüşün əks etdirdiyi reallıqlardan biri də budur ki, Azərbaycan milli maraqlara əsaslanan, regional təhlükəsizliyə və əməkdaşlığa xidmət edən strateji məqsədlərini reallaşdırmağa davam edir. Üçtərəfli görüşdə Azərbaycan Prezidentinin, Rusiya Prezidentinin və Ermənistan baş nazirinin mətbuata bəyanatlarında əksini tapan məqamlar Soçi görüşünün nəticələrini müsbət qiymətləndirməyə əsas verir. Əminliklə söyləmək olar ki, Azərbaycan qarşısına qoyduğu məqsədlərə nail oldu.

Bunlarla yanaşı, Prezident İlham Əliyevin ötən il dekabrın 15-də Belçika Krallığının paytaxtı Brüsseldə keçirilən Avropa İttifaqının (Aİ) Şərq Tərəfdaşlığının VI Sammitində iştirakı və çıxışı xüsusi diqqət mərkəzində oldu - böyük maraqla qarşılandı. Zirvə toplantısı çərçivəsində səsləndirilən fikirlər dünyada böyük etimada malik olan Azərbaycanın Avropa İttifaqı ölkələri üçün vacib və cəlbedici tərəfdaş olduğunu bir daha təsdiqlədi. Növbəti dəfə bəyan olundu ki, Aİ ölkəmiz ilə müxtəlif sahələri əhatə edən çoxşaxəli münasibətlərin inkişafına xüsusi əhəmiyyət verir. Yeri gəlmişkən, keçən il dekabrın 14-də Brüsseldə Prezident İlham Əliyevin, Aİ Şurasının Prezidenti Şarl Mişelin və Nikol Paşinyanın görüşü postmünaqişə dövründə regionda proseslərin tənzimlənməsinin diqqət mərkəzində olduğunu bir daha nümayiş etdirdi.

Beləliklə, bəhs olunan görüşlər zamanı səsləndirilən fikirlər postmünaqişə dövründə prosesləri tənzimləyən əsas qüvvənin - söz və nüfuz sahibinin Azərbaycan olduğunu təsdiqlədi. Növbəti dəfə aydın oldu ki, Azərbaycanın geostrateji iradəsi əsasında regionda yeni təhlükəsizlik mühiti yaranır, çoxtərəfli əməkdaşlıq platforması formalaşır və bu işbirliyi çətiri altında birləşmək yalnız iqtisadi mənfəət, siyasi dividend vəd edir. Bu prosesə isə süni müdaxilə etmək, reallıqları dəyişdirmək mümkün deyil!

2021-ci ilin hərbi-siyasi və strateji nöqteyi-nəzərdən ən mühüm hadisələrindən biri Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması oldu. Şübhəsiz ki, Bəyannamə regionun yeni geostrateji reallıqlarını təsdiqləyən sənəd, həmçinin qardaş ölkələrin strateji tərəfdaşlığının zirvəsidir.

Ümumiyyətlə, dostluğa, qardaşlığa və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Türkiyə münasibətləri ən yüksək zirvədədir. İkinci Qarabağ müharibəsi Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz olduğunu və möhkəm təməllərə əsaslandığını bir daha bütün dünyaya nümayiş etdirdi. İki ölkə, sözün əsl mənasında, yeni bir dostluq və qardaşlıq dastanı yazdı, tarixi salnamə yaratdı. Heç şübhəsiz, postmüharibə dövründə yaranmış yeni reallıqların fonunda Azərbaycan-Türkiyə dostluğu və strateji tərəfdaşlığı regionda dayanıqlı sülhün, etibarlı təhlükəsizliyin və çoxtərəfli əməkdaşlığın təmin olunması baxımından strateji önəm kəsb edir. İki ölkənin sıx əməkdaşlığı və birgə təşəbbüsləri regionda çoxşaxəli qarşılıqlı faydalı işbirliyinin dərinləşməsində, strateji inteqrasiyanın daha intensiv xarakter almasında vacib rola malikdir. Bütövlükdə, bölgədə qlobal əhəmiyyətli yeni geostrateji konfiqurasiyanın formalaşmasında Azərbaycan-Türkiyə müttəfiqliyi aparıcı faktor kimi çıxış edir. Qars müqaviləsindən yüz il sonra iki ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsində bütün sahələrdə ikitərəfli münasibətlərin inkişafı ilə əlaqədar aydın strateji niyyət ifadə olunub. Digər tərəfdən, Türkiyə və Azərbaycanın qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik, qarşılıqlı dəstək nümayiş etdirərək eyni mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi ilə əlaqədar qətiyyətli mövqe ortaya qoyulması mühüm əhəmiyyət daşıyır.

Beləliklə, 2021-ci ilin ən mühüm hadisələrindən olan Şuşa Bəyannaməsinin imzalanması ilə regionun geostrateji arxitekturası yenidən dizayn olunur.

Bunlarla yanaşı, ötən il Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısı çox mühüm məqamlarla yadda qaldı. Zirvə Toplantısı, həmçinin beynəlxalq dialoq və əməkdaşlıq məkanı olan Azərbaycanın səmərəli ideya, təklif və təşəbbüslərinin regionda çoxtərəfli münasibətlərin inkişafı baxımından mühüm əhəmiyyətə malik olduğunu, perspektiv əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsinə dayanıqlı zəmin yaratdığını göstərdi. Yeri gəlmişkən, Aşqabad sənədində əks olunan məsələlər Azərbaycanın milli-strateji maraqlarına tam adekvat oldu və yeni mərhələdə ölkəmizin mühüm rolunu, yüksək statusunu əks etdirdi. Sənəddə Azərbaycan xalqı və hökumətinin ərazilərin işğaldan azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması münasibətilə təbrik edilməsi isə xüsusi vurğulanmalıdır. Bu, bir daha onu göstərir ki, 44 günlük müharibədə qələbə qazanaraq öz ərazi bütövlüyünün və tarixi ədalətin bərpasına nail olan Azərbaycanın yaratdığı reallıqlar təkcə
respublikamız deyil, bütövlükdə region dövlətləri və güc mərkəzləri, o cümlədən İƏT üzvü olan dövlətlər üçün önəmlidir, həmçinin mühüm dividendlər vəd edir. Digər tərəfdən, sənəddə üzv ölkələr Azərbaycanın azad edilmiş ərazilərinin qurulması və yenidənqurma layihələrinə investisiya qoymağa çağırıldı. Bu isə Azərbaycanın iqtisadi əməkdaşlıq dairəsinin genişlənməsinə xidmət etməklə yanaşı, ölkəmizin funksional iqtisadiyyatının inkişaf perspektivləri ilə də bağlı müstəsna önəm daşıyır. Həmçinin İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində qəbul edilmiş hesabatlarda “Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları sənədlərdə yer almış dəhliz” ifadəsinin öz əksini tapması Zəngəzur dəhlizi məsələsinin İƏT regionunda uğurla təşviq edildiyini göstərir. Bu da təsadüfi deyil,

çünki Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin önəmli hissəsinə çevriləcək Zəngəzur dəhlizi Avrasiyada kommunikasiya və inteqrasiyanı gücləndirəcək.

Eyni zamanda, 12 noyabr 2021-ci ildə İstanbulda Türk Dövlətləri Təşkilatının Səkkizinci Zirvə Görüşündə üzv dövlətlər torpaqlarımızın hərbi işğaldan azad edilməsi ilə bağlı Azərbaycanın haqq işini dəstəklədilər, münaqişədən sonra bərpa, yenidənqurma və reinteqrasiya səylərinə dəstəkləməyə hazır olduqlarını ifadə etdilər. Xüsusi vurğulamaq gərəkdir ki, Zirvə Görüşündə dövlətimizin başçısı Azərbaycan Respublikasının torpaqlarının azad edilməsini və ərazi bütövlüyünün bərpa olunmasını təmin edən, Türk birliyinə önəmli töhfə verən, regionda davamlı sülh və sabitliyə nail olunmasına yol açan tarixi Qələbə münasibətilə Türk Dünyasının Ali Ordeni ilə təltif olundu.

Beləliklə, ötən ilin siyasi-diplomatik mənzərəsini əks etdirən bu reallıqlar onu göstərir ki, dünyanın nəzəri Azərbaycanda və regiondadır. Çünki Azərbaycanın yaratdığı geostrateji reallıqlar beynəlxalq ictimaiyyətin xüsusi diqqət mərkəzindədir.

Sadalananlardan əlavə, Azərbaycan 2021-ci ildə həm region ölkələri, həm də regiondan kənar dövlətlərlə ikitərəfli münasibətləri uğurla inkişaf etdirdi, müxtəlif səfərlər baş tutdu, ayrı-ayrı sahələri əhatə edən önəmli müqavilələr imzalandı. Eyni zamanda, regional və beynəlxalq təşkilatlarda faydalı təmaslar, Aİ və NATO ilə, eləcə də ölkəmizin üzvü olduğu İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM təşkilatları çərçivəsində milli maraqlarımız əsasında əməkdaşlıq davam etdirildi. Eyni zamanda, Azərbaycan Qoşulmama Hərəkatında Sədrliyini uğurla davam etdirərək üzv dövlətlərin potensialının Hərəkatın qarşısında duran məqsədlərin reallaşdırılmasına yönəlməsində aktiv rol oynadı, qlobal məsələlərlə əlaqədar vacib təşəbbüslərlə çıxış etdi. Ölkəmizin təşəbbüsləri BMT, Qoşulmama Hərəkatı çərçivəsində və beynəlxalq miqyasda olduqca yüksək qiymətləndirildi. Bununla yanaşı, Azərbaycan Türk Şurasına sədrliyi uğurla başa vurdu.

Nəticə etibarilə, Azərbaycan diplomatiyasının 2021-ci il səhifəsi ciddi uğurlarla və əlamətdar hadisələrlə yadda qalıb.

**Xülasə**

Məqalədə Azərbaycan diplomatik əlaqələrinin inkişaf dinamikasından bəhs edilir.

Nəticə etibarı ilə Azərbaycan diplomatiyasının 2021-ci il səhifəsi ciddi uğurlarla və əlamətdar hadisələrlə yadda qaldı.

Müasir Azərbaycan dövlətinin diplomatik uğurlarını dünya unutmayacaq.

**İstifadə olunmuş ədəbiyyat:**

1. İnternet materialları.
2. Azərbaycan Milli ensklopediyası.
3. Cənubi Azərbaycan tarixi.

# ZƏFƏRƏ APARAN YOL

***Anar Kərimli***
***“İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası” kafedrasının baş müəllimi***
***kerimli_anar@mail.ru***

***Açar sözlər:*** *Qələbə, Zəfər, Müzəffər Ordu*

XX əsr görkəmli Türk yazar və şairi Mithat Cemal Kuntay deyirdi:

“Bayrakları bayrak yapan üstündeki kandır
Toprak, eger uğrunda ölen varsa vatandır”

2020-ci il sentyabrın 27-dən Ermənistanın Azərbaycana qarşı başlayan növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başladı. İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirdilər. Qısa müddətdə işğal altında olan şəhər, qəsəbə və kəndlərimiz düşmən işğalından azad olunmağa başladı. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarının çox böyük hissəsi, eləcə də bu rayon mərkəzlərinin işğaldan azad edilməsi təcavüzkar erməniləri daha böyük cinayətlərər əl atmağa vadar etmişdir. Cəbhə bölgəsindən xeyli uzaqda olan Bərdə, Mingəçevir, Gəncə şəhərləri, paytaxt Bakı, eləcə də Avropanın enerji təhlükəsizliyində böyük rol oynayan Bakı-Tbilisi-Ceyhan neft kəməri beynəlxalq konvensiyalarla istifadəsi qadağan olunmuş raketlərlə hədəf götürülmüşdür. Şanlı ordumuzun qəhrəman əsgər və zabitlərinin şücaəti nəticəsində düşmən istəyinə çatmamışdır. Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənabları 2020-ci il dekabrın 2-də hər il sentyabrın 27-nin Azərbaycan Respublikasında Anım Gününü kimi qeyd edilməsi haqqında Sərəncam imzalamışdır. Bu gün həmin tarixdən iki ilə yaxın vaxt keçir.

İkinci Qarabağ müharibəsində 3000-ə yaxın həmvətənimiz şəhid olmuş, itkin düşmüş, yaralanaraq sağlamlığını itirmişdir. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. Əminik ki, müzəffər ordumuzun bu gün yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir. Azərbaycan Respublikasının Prezidenti müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları deyir: “Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən

müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq.
Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi
Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!”

Bu, eyni zamanda, regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT-də çıxış edərkən Qafqazda sabitlik baxımından önəmli addımlar atıldığını bildirib və deyib: “Azərbaycan qanuni müdafiə hüququndan istifadə edərək, BMT-nin Təhlükəsizlik Şurasının illərdir tətbiq olunmayan qərarlarını həyata keçirməklə öz torpaqlarındakı işğala son qoyub. Qafqazda davamlı sülhün adına yeni fürsətlər üçün pəncərələr açılıb. Tərəflərin atacağı bütün müsbət addımları dəstəkləməkdə qərarlıyıq”. Bu gün Azərbaycanın tarixi qələbəsi beynəlxalq tribunalardan qürurla səsləndirilir.

Azərbaycanın hərb tarixində Vətən müharibəsi və ya “Dəmir Yumruq Əməliyyatı” kimi adlandırılan 44 günlük müharibə özünəməxsus xüsusiyyətləri ilə müasir müharibənin nümunəsi kimi dünyanın aparıcı hərbi təhsil müəssisələrində öyrənilir. Əks-hücum əməliyyatı müharibə tarixi üçün bir çox yeniliklərə imza atdı. Bir çox xarici ölkələrin hərbi ekspertləri, hərbi institutları müharibəni təhlil edərək öz ölkələri üçün dərslər çıxardı. Şuşanın erməni daşnaklarından azad edilməsi hərb tarixində yeni səhifədir. Bu səhifə hələ uzun illər öyrəniləcək. Müharibədə Ermənistan ordusunun 200-dən artıq tankının məhv edilməsi hərbi ekspertlər tərəfindən artıq tankların dövrünün sonunun çatması ilə bağlı müzakirələrə səbəb olub.

Əlbəttə, Azərbaycanın 30 illik Qarabağ problemini cəmi 44 günə həll etməsi və düşmən üzərində tarixi zəfər qazanmasında ordumuzun hərbi qüdrəti və müasir silah-sursatla təchiz olunması ilə yanaşı, xalqımızın həmrəyliyi, vətəndaşların “Dəmir Yumruq” ətrafında birləşməsi müstəsna rola malikdir. Birlik və həmrəyliyimiz, hərbi qulluqçularımızın qəhrəmanlığı qələbənin əsas qayəsini təşkil edir. Nəticədə dünyanın hərb tarixinə düşən Vətən müharibəsi ilə regionun taleyində yeni bir səhifə açıldı. Bununla da ordumuz Ali Baş Komandanımız İlham Əliyev cənablarının dediyi kimi “Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur.” Azərbaycan ordusunun döyüş meydanında əldə etdiyi uğuru Ali Baş Komandan masa üzərində gerçəkləşdirdi. Ağdam, Kəlbəcər və Laçın bir güllə atılmadan erməni daşnaklarından azad edilməklə haqq işinin yerinə yetirildiyini, BMT-nin illərdir kağız üzərində qalan tələbləri yerinə yetirilmiş oldu.

Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca
tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram göstərirlər.

XX əsrin əvvəllərində görkəmli Azərbaycan şairi Məhəmməd Hadi təəssüflə deyirdi:

İmzasını qoymuş miləl övraqi-həyatə

Yox millətimin xətti bu imzalar içində

XXI əsrdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan ordusu torpaqlarımızı işğaldan azad edərək bizə uca tribunalardan “Var millətimin imzası imzalar içində” deməyi nəsib etdi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. https://aia.az/52716-27-sentyabr-zfr-aparan-yol.html
2. http://www.xn--osmanlhaber-4zb.com/bayrak-sairi-arif-nihat-asya.html
3. M. Vəliyeva, G.Əfəndiyeva, G. Misirova, M. Hadi (Biblioqrafiya)

**Xülasə**

Məqalədə 44 günlük savaşda Ali Baş Komandan İlham Əliyev, Azərbaycan xalqı və ordunun birliyi sayəsində zəfərə aparan yol tarixi faktlarla işıqlandırılmışdır.

## VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ AZƏRBYCAN-TÜRKİYƏ QARDAŞLIĞI

***Fəridə Mikayılova***
***“Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası”kafedrasının baş müəllimi***
***feride.mikailova@mail.ru***

***Açar sözlər:*** *Vətən müharibəsi, Türkiyə, tarixi zəfər, Müzəffər Ali Baş Komandan, Şuşa Bəyannaməsi, əməkdaşlıq*

Hər bir azərbaycanlıda qürur hissi yaşadan, torpaqlarımızın işğaldan azad olunması ilə başlayan Vətən müharibəsi Azərbaycan xalqının qələbəsi ilə başa
çatdı. Bu tarixi hadisə ilə son bir neçə yüz il ərzində ilk dəfə olaraq, Azərbaycan işğal olunmuş torpaqlarını özünə qaytardı, ərazi bütövlüyünü təmin etdi.

Əslində Qarabağ və onun ətrafındakı torpaqların işğaldan azad edilməsi
ilə ölkə rəhbərliyi xalqımızın ən ümdə taleyüklü problemini həll etdi.

Ermənistanın baş naziri N. Paşinyan 2018-ci ildə hakimiyyətə gəldikdən sonra Dağlıq Qarabağ probleminin həllinə dair danışıqlara zidd olan açıqlamalar verərək, format dəyişdirilməsindən, danışıqlara separatçı rejimin cəlb olunmasından dəm vuraraq, regional siyasətdə köklü dəyişikliklər etmək fikrinə düşdü. Hakimiyyətini möhkəmləndirdikdən sonra, onun verdiyi bəyanatlar göstərdi ki, Ermənistanın həyata keçirdiyi siyasət, ümumilikdə danışıqların mahiyyətinə məzmununa uyğun deyil. Baş nazirin “Qarabağ Ermənistandır” deməsi seperatçı rejimin “Parlamentini” Şuşa şəhərinə köçürmək planı sərxoş vəziyyətdə Cıdır düzündə rəqs etməsi habelə həmin dövrdə Ermənistanın müdafiə naziri olan Tonoyanın “yeni ərazilər üçün yeni müharibə” konsepsiyasının irəli sürülməsi kimi sərsəm bəyanatlar danışıqları tamamilə mənasız hala gətirdi.

İyul ayında Ermənistan-Azərbaycan sərhədinin Tovuz istiqamətində ermənilər təxribat törətdi və torpaqlarımızı işğal etmək istədi. General Polad Həşimov və digər əsgər və zabitlərimiz ermənilərlə döyüşdə qəhrəmancasına həlak oldu. Tovuz döyüşlərində düşmənə layiqli cavab verildi.

Avqust ayında ermənilər Azərbaycana diversiya qrupu göndərdi. Həmin diversiya qrupu da zərərsizləşdirildi. Nəhayət 2020-ci il sentyabrın 27-də kəndlərimiz, hərbi mövqelərimiz düşmənin artilleriya atəşinə məruz qaldı. Mülki şəxslər hərbiçilərimiz arasında itkilər oldu. Beləliklə, Azərbaycan xalqının Vətən müharibəsi başlandı.

Müzəffər Ali Baş Komandanın qətiyyəti sayəsində Azərbaycan Ordusu Zəfər tarixini yazdı. 44 günlük Vətən müharibəsi ərazi bütövlüyümüzün təmin olunması üçün haqqın-ədalətin bərpası istqamətində göstərilən sücaəti, eyni zamanda kimin kim olduğunu, kimin dost, kimin düşmənin yanında olduğunu nümayiş etdirdi. Bu həlledici məqamda Azərbaycan-Türkiyə qardaşlığı öz sarsılmazlığını bir daha sübut etdi.

Azərbaycan və Türkiyə dövlətləri arasında dostluq və qardaşlığı əlaqələri dədim tarixə malikdir. Türkiyə və Azərbaycan iki qardaş ölkəni bir birinə bağlayan qarşılıqlı səmimi münasibətlər xalqımız arasında yeni tarixin yazılmasıyla davam edir. Tarixə nəzər salarkən türk dünyasının görkəmli dövlət liderləri Mustafa Kamal Atatürk və Heydər Əliyevin miras qoyduqları
siyasi kurs bu gün Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev tərəfindən şərəfli missiya kimi layiqincə davam etdirilir.

Məlumdur ki, Ermənistan Azərbaycan torpaqlarını işğal etdiyinə görə hələ 1993-cü ildə Türkiyə Ermənistanla sərhədləri bağlayıb, bütün diplomatik əlaqələrini kəsib. Hətta ABŞ Türkiyəyə Ermənistanla sərhədləri açmağa dair təzyiqlər göstərsə də bunun heç bir nəticəsi olmadı. Həmin vaxtlar ABŞ-ın Türkiyəyə təzyiqlər göstərdiyi bir zamanda bəzi araqarışdıran qüvvələrin Türkiyə-Azərbaycan əlaqələrinə kölgə salmaq cəhdləri də bir fayda vermədi. Ulu Öndər Heydər Əliyevin “Bir millət iki dövlət” müdrik kəlamı bir daha öz həyatiliyini təsiq etdi. Ümummilli Liderimiz Heydər Əliyev deyirdi: “Türkiyə Cumhuriyyətinin böyük tarixi var. Böyük Öndər, dahi Mustafa Kamal Atatürk Türkiyənin əsasını qoymuş, böyük dövlət yaratmışdır. Sonra gələn nəsillər onun işini davam etdirərək Türkiyəni bütün dünyada nüfuzlu, əzəmətli bir dövlətə çevirmişdir.

Hələ Tovuz hadisələri zamanı Erməni ordusunun hücumu Türkiyədə sərt qarşılanmış, ölkə başçısı Ərdoğan Azərbaycana tam dəstəyini ifadə edən bəyanat vermiş, Türkiyə Böyük Millət Məclisində dörd siyasi partiyanın qəbul etdiyi birgə qərarda Ermənistanın regionda müharibəni alovlandıran davranışı kəskinləşdirməkdə qınamışlar.

Türkiyə Vətən müharibəsinin ilk saatlarından Azərbaycan ədalətli mübarizəsini dəstəkləmiş, ona siyasi, diplomatik dəstək vermişdir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan müharibənin başlandığı gün (27 sentyabr 2020-ci il ) “Erməni xalqını onları fəlakətə aparan hakimlərinə və onları bir kukla kimi oynadanlara qarşı çıxmağa, gələcəklərinə sahib çıxmağa dəvət edirəm. Bütün dünyaya işğala və zülmə qarşı verdikləri mübarizədə Azərbaycanın yanında olmağa çağırıram” - dedi.

Həmin gün Türkiyənin Milli Müdafiə Naziri Hülusi Akar Azərbaycanın tərəfində olduğunu bildirərək, Ermənistanın mövqeyinin Cənubi Qafqazda sülhün və sabitliyin ən böyük əngəli olduğunu vurğulamışdı.

Sonrakı günlərdə Türkiyənin Azərbaycana dəstəyinin bariz nümunəsi olaraq, xarici işlər naziri M. Çavuşoğlunun Bakıya səfəri baş tutmuş, bu görüşlər zamanı dost ölkəyə güvənə biləcəyini bir daha bəyan etmişdir. Bakıda olduğu zaman nazir Çavuşoğlu növbəti dəfə Azərbaycan Prezidenti İlham

Əliyev tərəfindən qəbul edilərkən “Bütün dünyaya türkün gücünü göstərdiniz. Qurur duyuruq” deyə ifadəni işlətdi.

2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhərində Türkiyənin Xarici İşlər nazıri M. Çavuşoğlunu Milli Müdafiə naziri Hülusi Akar, Milli İstihbarat Təşkilatının sədri Hakan Fidanı qəbul etmişdir. Görüşdə üç tərəfli 10 noyabr Bəyanatı müzakirə edildi. Türkiyə rəsmiləri bir daha Azərbaycanın haqlı mövqeyini dəstəklədiklərini bildirdilər.

Görkəmli türk dövlət xadimləri Hikmət Çətinin, Binəli Yıldırımın və bir çox başqalarının cənab İlham Əliyevə ünvanladığı teleqramlardakı “dualarımız sizinlədir” sözləri yalnız dövlət xadimlərinin yox, bütün türk xalqının hiss- həyacanını ifadə edirdi.

Vətən müharibəsinin ilk günlərindən Türkiyənin elm, mədəniyyət xadimləri Azərbaycanla həmrəy olduğunu, haqq savaşında ölkələrimizin mövqeyini dəstəklədiklərini bir daha nümayiş etdirmişdilər. Müharibə dövründə türk dünyası yazarları Ermənistanı Azərbaycana qarşı apardığı terror siyasətinin dayandırılmasına dair Bəyanat imzalamışdılar. Bəyanatda deyilir: “Türk dünyası yazarları olaraq Ermənistanın təcavüzkarlıq siyasətini qətiyyətlə pisləyir, dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, Avropa Parlamenti, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə BMT-na səslənərək, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının vacibliyini və Ermənistanın Azərbaycan xalqına qarşı apardığı terror siyasətinin bir an öncə dayandırılmasının vacibliyini ifadə edirik” Qərb mediası Qarabağ problemindən bəhs edərkən həmişə “xristian Ermənistan, müsəlman Azərbaycan” ifadələrindən istifadə etməyə üstünlük verirdi. Müharibənin ikinci günündən sonra ingilis qəzeti “The Quardian“ Qarabağ müharibəsi zamanı Ermənistanın “SU-25” təyyarəsinin Türkiyənin “F-16” döyüş təyyarəsi tərəfindən vurulmasını iddia etdi. Fransanın “Le Monde” qəzeti daha da irəli gedərək öz səhifələrində Qarabağda Azərbaycan tərəfdə Türkiyənin vasitəçiliyilə Suriyadan gətirilmiş muzdlu döyüşçülərin vuruşduğunu yazmaqdan çəkinmirdi. Bütün bunlar Azərbaycan ordusunun gücünü və uğurunu kiçiltməyi, Ermənistan xalqına isə “Məğlubiyyətin səbəbi Türkiyənin müdaxiləsidir” deyərək öz hərbi, siyasi və diplomatik məğlubiyyətini gizlətməyə hədəflənmiş qarayaxma təbliğatından başqa bir şey deyildi.

İkinci Qarabağ müharibəsi ərzində soyuqqanlığını qoruyan dövlət başçısı Bakıya gələn avropalı və amerikalı jurnalistləri öz arqumentləri ilə susdurur, Azərbaycanın həqiqətlərini səsləndirir, onların öz deyimi ilə “feyknyus”ları bir-bir ifşa edirdi. Vətən müharibəsi dövründə güclü türk diasporunun Azərbaycanın ərazi bütövlüyünün qorunması istiqamətində göstərdiyi səy, qardaş dəstəyi olmaqla, türk dünyasının birliyi və həmrəyliyi yolunda atılan ciddi siyasi addımlar hesab edilir.

Azərbaycanın savaş meydanında tək olmadığını, Türkiyənin Azərbaycanın yanında olduğunu bildirən dost, qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan qələbəmizin təntənəsi olan Zəfər Paradında (10 dekabr 2020) ölkəmizi tək qoymadı, birlik, qardaşlıq həmrəylik nümayiş etdirərək aşağıdakı sözləri qətiyyətlə səsləndirmişdir: “Rəbbimə bizlərə bu günləri yaşatdığı üçün sonsuz şükür edirəm. Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm!” Qarabağ Azərbaycandır” Qarabağ artıq ana vətəninə qovuşmuş, otuz illik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları abad, daha inkişaf etmiş bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə Allahın izniylə çətinliklərin öhdəsindən gəlməyə uğurdan uğura çatmağa davam edəcəkdir. Allah köməyiniz olsun!”

Zəfər Paradında qardaş Türkiyə Respublikasının Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçular minbaşı Harun Ergenin rəhbərliyi ilə tribuna önündən keçdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cumhuriyyətinin Başqanı Rəcəb Tayyib Ərdoğan arasında 2021-ci il iyunun 15-də Şuşada imzalanmış Bəyannamə iki qardaş Respublika arasında hərtərəfli əməkdaşlığın yeni üfüqlərini müəyyənləşdirdi.

**Xülasə:**

Məqalədə haqlı olaraq göstərilir ki, Vətən müharibəsinin ilk saatlarında qardaş Türkiyə Azərbaycanın haqq savaşını dəstəkləmiş, Türkiyənin dövlət rəhbərləri, ictimai xadimlər, Türkiyə ictimaiyyəti Azərbaycanın yanında olduqlarını dəfələrlə vurğulamışlar.

Müharibə dövründə Azərbaycan-Türkiyə qardaşlığı tarixi zəfərin qazanılmasında həlledici amil olmuşdur.

**İstifadə olunmuş ədəbiyyat:**

1. İ. Əliyev. “İnkişaf məqsədimizdir”. 104-cü kitab, Bakı, 2020.
2. 44 gün anbaan (rəsmi xronika ) Bakı, 2021.
3. F. Təvəkkülqızı. “Azərbaycan bu gün”. Bakı,2021
4. “Mədəniyyət jurnalı”, sentyabr-oktyabr-2020.

# II QARABAĞ MÜHARİBƏSİNİN QALİBİ, MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN

***Araz Əliyev***
***“İctimai, təbiət fənləri və onların tədrisitexnologiyası” kafedrasının baş müəllimi***
***ani.eliyev95@bk.ru***

***Açar sözlər:*** *Müharibə, Müzəffər Ordu, peşəkarlıq, Qələbə, ifşa*

Bu gün Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan bütün dünyada qalib dövlət, xalqımız isə məğrur xalq kimi tanınır.

Hakimiyyətdə olduğu illər ərzində Prezident İlham Əliyev Azərbaycanı etibarlı tərəfdaş, regionda və dünyada müstəqil xarici siyasət yürüdən bir dövlət kimi tanıtdı, ölkəmizin beynəlxalq əlaqələrini gücləndirdi. Elə bunun məntiqi nəticəsi idi ki, 44 günlük Vətən müharibəsi dövründə də ölkə başçımız bütün siyasi təzyiqlərə və təhdidlərə də sinə gərməyi bacardı. Prezident İlham Əliyev prinsipiallıq, yenilməz iradə nümayiş etdirərək Azərbaycan xalqının milli maraqlarını qətiyyətlə müdafiə etdi, məqsədyönlü, ardıcıl siyasət apardı və bütün bunların nəticəsi olaraq tarixi Qələbə qazandıq. Azərbaycanın döyüş meydanında əldə etdiyi parlaq Qələbə elə gözəl bir nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bir güllə atılmadan, şəhid vermədən Azərbaycana qaytarıldı. İtki vermədən torpaqların geri qaytarılması dünya tarixində az rast gəlinən təcrübədir ki, bu, Prezident İlham Əliyevin praqmatik, düşünülmüş və uzaqgörən siyasəti nəticəsində əldə edilmiş möhtəşəm bir uğurdur.

Ali Baş Komandanımız İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, müzəffər və yenilməz ordumuzun şücaəti, xalqın Prezidentinə olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi, Türkiyə kimi güclü qardaş dövlətin Azərbaycanın yanında olması tam qələbəmizi təmin edən həlledici amillərdir. Azərbaycanın XXI əsrin müharibəsini qələbə ilə başa vurması bu gün inkişaf etmiş ölkələri bizim təcrübəmizdən yararlanmağa vadar edir. 44 günlük Vətən müharibəsi dövründə Müzəffər Ali Baş Komandan İlham Əliyev başda olmaqla Azərbaycan Ordusunun yüksək peşəkarlığı, orduda yüksək nizam-intizam, mobillik, müasir hərbi texnologiyalara malik olması və ondan məharətlə istifadə etməsi qələbəmizi şərtləndirən amillərdən oldu. Azərbaycan xalqının Ordusuna olan güvəni, Ali Baş Komandanın ətrafında sıx birləşməsi Vətən, doğma torpaqlar uğrunda vuruşan Azərbaycan hərbiçilərinin yüksək mənəvi-psixoloji durumuna da olduqca müsbət təsir etdi.

Bunun nəticəsi idi ki, yaralanmış və ağır vəziyyətdə olan hər bir əsgər və zabitimiz tezliklə sağalaraq döyüş bölgəsinə qayıtmağa can atırdı. Bu, əsgər və zabitlərimizin Vətən sevgisindən, eyni zamanda öz Ali Baş Komandanına olan sonsuz güvənindən və qələbəyə inamından qaynaqlanırdı.

Prezident İlham Əliyevin diplomatik məharəti, prinsipiallığı, dəqiq və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan tarixi Qələbə qazandı. Ölkə başçımızın prosesi yüksək peşəkarlıqla, çevikliklə idarə etməsi, zəruri müdaxilələri və korrektələri diplomatik masada da bizi düzgün hədəflənmiş uğura

doğru aparırdı. Ölkənin potensialı bütün platformalarda Ermənistanın işğalçılıq siyasətinin ifşa edilməsinə yönəldildi. Cənab Prezident öz çıxışlarında hər zaman qeyd edirdi ki, məhz işğal siyasətinə görə Ermənistanı bütün regional layihələrdən təcrid edib. Dövlət başçımız tərəfindən düşünülmüş bu siyasətin nəticəsidir ki, Ermənistan heç bir perspektivi olmayan dalan dövlətə çevrildi. Bu baxımdan da əminliklə deyə bilirik ki, Azərbaycanın qazandığı bu Qələbə, sadəcə, 44 günlük müharibənin nəticəsi deyil. Belə ki, 17 illik fəaliyyəti dövründə Prezident İlham Əliyevin düşünülmüş şəkildə yürütdüyü siyasət nəticəsində münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı hüquqi baza yaradıldı, dünyada Azərbaycan haqqında obyektiv fikir formalaşdırıldı.

Hər birimizə yaxşı məlumdur ki, 44 günlük müharibə dövründə erməni təcavüzkarları insanlığa yad olan, heç bir norma və əxlaqa sığmayan vasitələrə əl atmış, xalqımıza qarşı növbəti vəhşiliklər törətmiş, cəbhə xəttindən, döyüşlər gedən ərazilərdən çox-çox uzaqlarda yerləşən şəhər və kəndləri, yaşayış obyektlərini, mülki əhalini qadağan olunmuş silahlarla, ballistik raketlərlə, toplarla atəşə tutmuş, 100-ə yaxın dinc sakin həlak olmuş, dörd yüzdən çox mülki vətəndaş yaralanmış, minlərlə binalar dağıdılmış, infrastruktur obyektlərinə ciddi ziyan dəymişdir.

Ermənilər Kəlbəcəri və Laçını tərk edərkən də evləri yandırır, meşələri məhv edirdilər.

Bütün bunlar dünyanın gözü qarşısında baş verdi. Sözsüz ki, dövlət başçısının qeyd etdiyi kimi, bu vəhşiliklərin cavabı düşməndən soruşulacaq və onlar etdiklərinə, törətdikləri cinayətlərə görə cavab verməli olacaqlar. Ancaq dövlət başçısı bu günün reallıqlarından çıxış edərək daha vacib olan və vətəndaşlarımızın sosial vəziyyətinin yaxşılaşmasına kömək edə biləcək məsələləri gündəmə gətirir, müharibədən əziyyət çəkən insanların həyatının normallaşmasına çalışır. Əlbəttə ki, müharibə qansız-qadasız, dağıntısız ötüşmür, onun öz qanunları var. Ancaq xalqımız 30 ildən çox idi ki, amansız, zalım, nə sülh, nə də müharibə qanunlarını saya salmayan, beynəlxalq normalara məhəl qoymayan vəhşi bir düşmənlə - erməni faşistləri ilə üz-üzə idi. Təcavüzkarlar sərsəm bəyanatlar səsləndirir, xalqımızın qüruruna toxunur, yeni tələblər irəli sürür və özlərini məğlubedilməz hesab edirdilər. Ən mötəbər beynəlxalq təşkilatların qərarlarını, qətnamələrini kağız parçası hesab edir, sülh təkliflərini qulaqardına vurur, heç kimi eşitmək istəmirdilər. Ancaq Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında müzəffər Ordumuz, igid əsgər və zabitlərimiz azğınlaşmış erməni təcavüzkarlarının, onların havadarlarının dərsini verdi, ordumuzun, xalqımızın birliyi və şücaəti bütün dünyaya nümayiş etdirildi. Bu, xalqımızın tarixi, heç vaxt unudulmayacaq qələbəsidir. Bu haqqın-ədalətin zəfəridir. Bu, Prezidentlə xalqın, ordunun birliyinin təntənəsidir.

Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə yanaşı, həm də regionda tamamilə yeni bir reallıq yaratdı.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu və hər detalı ən incə məqamına qədər hesablayan və diqqətə alan uzaqgörən diplomatiyamız hər hansı bir zəif düşmən üzərində deyil, güclü təşkilatlanmış bir düşmən, eyni zamanda onu himayə edən qərəzli, məkrli

qüvvələr üzərində qələbə çaldı. Müharibə bir neçə istiqamətdə qızğın xarakter alır, Azərbaycan isə bütün istiqamətlərdə Ermənistanı və onu himayə edən qüvvələri hər keçən gün bir az daha artıq məhv edirdi.

Əgər vaxtilə bəzi beynəlxalq təşkilatlar işğalçını öz adı ilə çağırmaq istəmir, işğalla bağlı qəbul edilmiş sənədlərdə işğalçının kim olduğunu göstərmək istəmirdilərsə bu gün bütün dünya Azərbaycan dövlətinin qalib dövlət, xalqımızın isə qürurlu, məğrur, yenilməz xalq olduğu reallığını görür və qəbul edir. Ölkənin potensialı bütün platformalarda Ermənistanın işğalçılıq siyasətinin ifşa edilməsinə yönəldildi. Belə ki, bu müddət ərzində isə döyüşlər sadəcə səngərdə və diplomatik masada deyil, informasiya məkanında da qızğın xarakter aldı. Ermənistanın əvvəlki dövrdə olduğu kimi, istər erməni lobbisinin, istərsə də xarici havadarlarının dəstəyi və köməyi ilə münaqişə haqqında dünyada informasiya vakuumu yaratmaq, öz yalan, ikiüzlü, riyakar siyasətini beynəlxalq ictimaiyyətə sırımaq üçün uğursuz cəhdlər göstərməsinə baxmayaraq informasiya məkanında da ən ali vəzifəni öz üzərinə götürən və sanki informasiya məkanının da Ali Baş Komandanı funksiyasını məharətlə icra edən cənab Prezident 26 xarici mediaya müsahibələr verdi, Ermənistan-Azərbaycan münaqişəsinin tarixi, səbəbləri, habelə Azərbaycanın mövqeyini əsaslandıran hüquqi, siyasi, mənəvi və digər amilləri bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı, Azərbaycanın haqlı mövqeyini tutarlı faktlarla əsaslandırdı və sual doğuran məsələlərə aydınlıq gətirərək reallıqları dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Bütün cinahlarda gedən döyüşlərə şəxsən rəhbərlik edən Prezident İlham Əliyev Azərbaycan xalqının milli maraqlarını qətiyyətlə müdafiə edərək tarixi qələbəyə imza atdı. Qələbəmiz isə təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə həm də regionda tamamilə yeni bir reallıq yaratdı. Fransanın, qərəzli mövqe nümayiş etdirən dairələrin mövcud münaqişədən istifadə edərək Cənubi Qafqazda siyasi oyunlar qurmaqla öz maraqlarını təmin etmək istiqamətində qurduğu planları Prezident İlham Əliyev kökündən məhv etdi.

“Biz qəhrəman əsgər və zabitlərimiz hesabına qələbə qazanmışıq”, – deyən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin, eləcə də hər bir əsgər və zabitin 44 günlük Vətən müharibəsi dövründə ən ümdə arzusu 30 ildir həsrətində olduğumuz torpaqlara üçrəngli bayrağımızı sancmaq oldu. Mənfur düşmən qarşı tərəfin maksimum itki verməsi məqsədilə işğal etdiyi ərazilərdə müasir texnologiyalara uyğun müdafiə sədləri qurub, istehkamlar tikmişdir. Azad olunan Ağdam, Füzuli rayonlarında istehkamların vizual müşahidəsi, bu sistemin yaradılmasına uzun illər və böyük məbləğdə vəsait sərf edildiyini aydın göstərir. Azərbaycan Ordusunun peşəkarlığı, düzgün strategiya və taktikanın tətbiq edilməsi hesabına Azərbaycan öz itkilərini tam minimallaşdıra bildi və ən mürəkkəb şəraitdə uğurlu əməliyyat apararaq müharibədən minimum itkilərlə çıxmağın da nümunəsini ortaya qoydu.

Ermənistan hökuməti növbəti dəfə öz ictimaiyyətini aldadaraq müharibədə 2-3 min əsgər və zabitinin həlak olduğunu iddia etsə də, kadrların təhlili zamanı Ermənistanın itkilərinin ən azı 10 min nəfər civarında olduğu aydındır. Digər tərəfdən, Ermənistan hökuməti yalnız keşmiş Dağlıq Qarabağda və Azərbaycanın işğal olunmuş digər ərazilərində xidmət edən Ermənistan vətəndaşı olan hərbçiləri

nəzərə alır. Lakin Dağlıq Qarabağ ermələri və xaricdən gələn çoxsaylı muzdlular məsələsinə toxunulmur, onlar hesablanmır. Ermənistan pulsuz əldə edilən hərbi texnika və sursatlar hesabına texniki baxımdan yüksək dərəcədə təminatlı orduya malik olmaqla yanaşı, Ermənistan ordusunun zabitləri Fransada, Rusiyada, Livanda və başqa ölkələrdə təhsil alıblar, xidmət ediblər və müasir hərbi texnologiyaları, yenilikləri öyrəniblər. 30 il ərzində Ermənistan hərbçiləri həmin ərazilərə dərindən bələd olublar. Qarabağı azad edən Azərbaycan Ordusunun bir çox gənc zabit, gizir və əsgərləri isə ilk dəfə idi ki, həmin coğrafiyada vuruşurdular.

Bu gün dünya Ermənistanı məğlub edilmiş, Azərbaycanı isə zəfər çalmış ölkə kimi tanıyır. Qələbəmiz təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil. Sentyabrın 27-i ikinci Qarabağ müharibəsi başlayandan bəri ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən biri kimi Fransa neytral mövqe nümayiş etdirmək əvəzinə, beynəlxalq hüquq normalarını kobud şəkildə pozur, işğalçı Ermənistanın maraqlarından çıxış edir və Azərbaycana qarşı əsassız ittihamlar irəli sürür. Bu isə onun həmsədr ölkə kimi, qeyri-obyektiv və tərəfli vasitəçilik missiyasından xəbər verir. Əslində, bu cür mövqe sərgiləməklə Fransa bölgədə sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində yox, əksinə, münaqişənin yenidən alovlandırılmasında, birbaşa işğalçılığa və separatizmə dəstək verməkdə maraqlı olduğunu ortaya qoyur.

Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə həm də regionda tamamilə yeni bir reallıq yaratdı. Fransanın, qərəzli mövqe nümayiş etdirən dairələrin mövcud münaqişədən istifadə edərək Cənubi Qafqazda siyasi oyunlar qurmaqla öz maraqlarını təmin etmək istiqamətində qurduğu planları Prezident İlham Əliyev kökündən məhv etdi. Bu baxımdan da yaranmış yeni reallıqlar fonunda Fransa və digər dairələr də mövcud vəziyyətlə barışmalı, Cənubi Qafqazın inteqrasiyasına və xalqların ümumi rifahına töhfə verməyə yönələn addımlar atmalıdır. Vətən müharibəsi dövründə Müzəffər Ali Baş Komandan İlham Əliyev başda olmaqla, Azərbaycan Silahlı Qüvvələri torpaqlarımızı azad etmək uğrunda dünyanın hərb tarixində dərs ola biləcək bir rəşadət ortaya qoydu. Heç bir qan tökülmədən, şəhid vermədən, bir əsgər belə yaralanmadan düşmədən torpaq alınması dünya tarixində də az rast gəlinən təcrübədir ki, bu, Prezident İlham Əliyevin praqmatik, düşünülmüş və uzaqgörən siyasəti nəticəsində əldə edilmiş möhtəşəm bir uğurdur.

Sözünün imzası qədər dəyəri olan Prezident İlham Əliyev hər zaman hərbçilərlə bir yerdə olacağını dəfələrlə bildirib. Birinci Qarabağ müharibəsinin təcrübəsi göstərir ki, Azərbaycan dövləti şəhidlərimizin xatirəsini həmişə uca tutur, onların adları əbədiləşdirilir, ailələrinə bütün lazımi yardımlar göstərilir, şəhid ailələrinin maddi təminat, mənzil-məişət problemlərinin həlli ilə bağlı bütün zəruri tədbirlər həyata keçirilir.

Vaxtilə xalqın tələbi ilə hakimiyyətə gələn, dövlətçiliyin əldən getməsinin qarşısını alan ulu öndər Heydər Əliyevin varisi İlham Əliyev bu gün Şuşanı, Kəlbəcəri, Qarabağı qaytardı və Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə yanaşı, bizi dünyaya qürurlu xalq olaraq tanıtdı. 1990-cı illərin əvvəllərində Azərbaycanın yetərli dərəcədə gücünün olmaması nəticəsində ölkəmiz işğala məruz qalıb. Bütün bu uğursuzluqlara baxmayaraq, 17 illik fəaliyyəti dövründə Prezident İlham

Əliyevin düşünülmüş şəkildə yürütdüyü siyasətlə münaqişənin həlli üçün hüquqi baza yaradıldı, daha böyük güc toplanaraq torpaqlarımız azad edildi.

Müharibəyəqədərki 17 illik fəaliyyəti dövründə Prezident İlham Əliyev iqtisadi və hərbi sahələrə güclü təkan verərək Azərbaycanı öz sözünü deyə bilən bir ölkəyə çevirdi və beləliklə də iqtisadi müstəqilliyimizi təmin edərək ölkəmizi heç kimdən asılı olmayan ölkə edib:

Elə bu gücün məntiqi izahıdır ki, 44 günlük müharibə ərzində də, ondan sonra da Prezident bütün siyasi təzyiqlərə sinə gərə bildi. Azərbaycanın XXI əsrin müharibəsini qələbə ilə başa vurması bu gün inkişaf etmiş ölkələri bizim təcrübəmizdən yararlanmağa vadar edir. Bu gün müzəffər Ali Baş Komandan Xocalı qətliamını törətmiş cəllad Köçəryanı, Sarkisyanı ifşa etdi, şəhidlərimizin qanını yerdə qoymadı. Azərbaycanda güclü xalq-iqtidar birliyi və birliyin başında Ulu Öndərin möhkəm siyasi təməllərini əsas tutan Prezident İlham Əliyevin şəxsi liderlik qabiliyyəti və düzgün müəyyənləşdirilmiş siyasi xətti var.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk günlərdən etibarən dövlət, ordu quruculuğu, iqtisadiyyatın dirçəldilməsi, region və dünya dövlətləri ilə münasibətlərin demək olar ki, sıfırdan qurulması, beynəlxalq təşkilatlarla əməkdaşlığa başlanılması dövlətin qarşısında duran təməl prinsipləri olmuşdur. Prezident İlham Əliyevin rəhbərliyi ilə 19 ildə bu məsələlər daha da genişləndirilmiş, həyata keçirilən uğurlu daxili və xarici siyasət Azərbaycanın beynəlxalq aləmdəki reytinqini getdikcə artırmışdır. Elə bunun məntiqi izahıdır ki, daha əvvəlki illərdə dünya Azərbaycanı məğlub ölkə kimi tanıyırdısa, bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı qalib və qürurlu xalq kimi tanınır. Dünya mətbuatı və xalqları Azərbaycanı XXI əsrin müharibəsini qələbə ilə yekunlaşdıran xalq kimi tanıyır. Bütün bunlar ölkəmizin mövqeyini daha da möhkəmləndirir, reytinqini yüksəldir.

**Xülasə**

Məqalədə II Qarabağ müharibəsi dövründə Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, müzəffər və yenilməz ordumuzun şücaəti, xalqın Prezidentinə olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi, Prezidentimizin Azərbaycanın haqq səsinin dünya dövlətlərinə və ictimaiyyətinə tutarlı faktlarla çatdırması məsələlərinin dövrü mətbuat materialları əsasında təhlilinə cəhd göstərilmişdir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. https://www.yeniazerbaycan.com/SonXeber_e75728_az.html
2. https://www.azerbaijan-news.az/az/posts/detail/muzeffer-ali-bas-komandanin-zefer-salnamesi-1640122046
3. http://cabrail-ih.gov.az/az/news/531.html
4. https://www.virtualkarabakh.az/az/photo-item/9/445/muzeffer-ali-bas-komandan.html
5. https://sosial.gov.az/post_595240

## QARABAĞ MÜHARİBƏSİNİN QƏHRƏMAN TİBB İŞÇİLƏRİ

***Şəbnəm Abbasova***
***“Tədrisin idarə olunması” şöbəsinin müdiri***
***abbasova.shabnam@hotmail.com***

***Açar sözlər:*** *qəhrəman tibb işçiləri, şəhid həkimlər, Qarabağ müharibəsi, 44 günlük müharibə, görünməyən qəhrəmanlar.*

2020-ci il 27 sentyabr bazar günü səhərini bütün Azərbaycan xalqı Azərbaycan Respublikası Prezidenti Ali Baş Komandan cənab İlham Əliyevin xalqa müraciəti ilə açdı. Ermənistan tərəfi növbəti təxribat xarakterli addımını atmış, Azərbaycan ərazisinə silahlı hücuma keçmişdi.

2020-ci il 27 sentyabrda başlayan müharibə düz 44 gün çəkdi və Azərbaycanın şanlı tarixinə 44 günlük Vətən müharibəsi olaraq keçdi. Vətən müharibəsi başlanan gündən – 27 sentyabrdan başlayaraq sənətindən, peşəsindən asılı olmayaraq hər kəs öz cəbhəsində vuruşurdu. 44 günlük müharibədə Azərbaycan xalqı nə qədər həmrəy olduğunu göstərdi. Bu müharibədə neçə-neçə qəhraman oğullarımız öz canlarından keçdilər. 44 günlük müharibədə qəhrəman əsgərlərimizlə birlikdə, döyüşən əsgərimizin yanında olan, xəstə və yaralılara yardım edərkən şəhid olan həkimlərimiz də oldu. Onlar bu müharibənin görünməyən qəhrəmanları idilər.Onlar hər nə qədər öz peşələrini arxa cəbhədə icra etsələrdə, yeri gəldiyində yaralı əsgərlərimizi döyüş bölgəsindən çıxara bilmək, onları qorumaq üçün öz sinələrini düşmən gülləsinə sipər etmiş, atəş altında səngərlərdə sürünərək yaralı əsgərlərimizə elə döyüş bölgəsində ilkin tibbi yardım göstərmişlər. Müharibənin qızgın dövründə döyüş bölgəsində iştirak edən tibb işçiləri həmin günlərdən bəhs edərkən qeyd edirlər ki, döyüş zamanı bütün əsgərlər ən çox hərbi həkimləri gördükləri üçün sevinirdilər.Həmin məqamda döyüş bölgəsində ən çox arzulanan insanlar məhz həkimlərimiz olub. Yeri gəldiyində əsgərlərimiz güllə yağışı altında yaralı yoldaşlarına tibbi yardım göstərən həkimlərimizə “siz bu qədər yaralı əsgərimizə lazımsınız” deyib, öz sinələrini sipər edərək onları qorumuşdur. Ya da həkimlərimiz yaralı əsgərləri qorumaq üçün özlərini sipər etməkdən çəkinməmişlər. Məhz həkimlərimizin səyi nəticəsində 44 günlük müharibədə 11 minə yaxın sayda yaralı əsgərlərimizin böyük qisminin həyatını xilas etmək mümkün olmuşdur.

Vətən müharibəsində şəhid olan tibb işçilərimiz də digər hərbi qulluqçularla yanaşı misilsiz qəhrəmanlıq və şücaət göstərərək öz adlarını şərəfli tariximizə yazmışdır. Müharibə zamanı 159 hərbi tibb işçisi yaralanmış, 42 tibb işçisi isə xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Həlak olmuş tibb işçilərindən 9-u həkim, 7-si feldşer, 26-sı sanitardır. Şəfa vermək arzusu ilə çıxdıqları bu yolda şəhadətə yüksələn həkimlərimiz ən uca zirvə olan şəhidlik zirvəsinə ucaldılar. Onlardan bəziləri hələ tələbə, bəziləri isə peşəsinə yiyələnmiş həkimlər idi. Şəhid olan həkimlərimizdən

Tibb xidməti leytenantı həkim Turqut Xəlilbəyli

Tibb xidməti leytenantı həkim Tariyel Salmanov

Tibb xidməti polkovnik-leytenantı Rasim Abdullayev

Tibb xidməti leytenantı həkim Azər Şəmilov
Tibb xidməti leytenantı həkim Adil Əfəndiyev
Tibb xidməti leytenantı həkim Mirlətif Ağayev
Tibb xidməti kapitanı həkim Anar Məmmədov
Tibb xidməti giziri həkim Eldar Abdullayev
Tibb xidməti baş leytenantı həkim Nurlan Fərəməzov
Tibb xidməti baş leytenantı həkim Şöhrət Qasımovu qeyd etmək lazımdır.

Vətən müharibəsinin yeganə xanım şəhidi Arəstə Baxışova da tibb işçisi olub. Azərbaycan Ordusunun çavuşu, hərbi feldşer Arəstə Baxışova Füzuli, Zəngilan və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət göstərmişdir. O, yaralı hərbçilərə elə döyüş meydanında tibbi yardım göstərmiş, xeyli sayda əsgər və zabitimizin həyatını xilas etmişdir.

Arəstə Baxışova 2020-ci il oktyabrın 23-də Qubadlı uğrunda gedən döyüşlərdə növbəti dəfə yaralı əsgəri döyüş meydanından çıxararkən aldığı güllə yarasından şəhid olmuşdur. Arəstə Baxışova Azərbaycan Prezidenti Ilham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

Vətən müharibəsinin ilk şəhid həkimi leytenant Turqut Xəlilbəylidir. O, müharibənin ilk günlərindən ön cəbhədə yaralı əsgər və zabitlərin həyatını xilas etmək üçün var gücü ilə çalışmış, öz vəzifəsini layiqincə yerinə yetirmişdir. Oktyabr ayının 7-də Turqut döyüş zamanı yaralı əsgərlərimizi xilas etmək məqsədilə birbaşa atəş zonasına üç dəfə giriş edir. Lakin dördüncü dəfə düşmənin atdığı artilleriya mərmisi Turqutun yaxınlığına düşür. Bu zaman Turqut özünü yaralı əsgərimizin üzərinə atır və öz canı bahasına onun həyatını xilas edir. Aldığı ağır qəlpə yaraları səbəbindən leytenant Turqut Xəlilbəylinin həyatını qurtarmaq mümkün olmur. Şəhidlik zirvəsinə yüksələn Turqut Xəlilbəyli həyatının son məqamında belə həyat qurtararaq öz peşəsini və insanlıq borcunu şərəflə yerinə yetirir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Turqut Xəlilbəyli ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, “Vətən uğrunda” medalı ilə, “Azərbaycan Bayrağı” ordeni ilə, “Füzulinin azad olunmasına görə” medalı ilə və “Cəbrayılın azad olunmasına görə” medalı ilə təltif edilmişdir.

Ağcabədi rayonundan olan qəhrəman hərbçimiz Tariyel Salmanov da Vətən müharibəsinin şəhid həkimlərindəndir. Taryel Salmanov 2020-ci ilin yayında Tovuz rayonu istiqamətində Azərbaycan-Ermənistan sərhədində mənfur düşmən tərəfindən başladılan döyüşlər zamanı könüllü olaraq ordu sıralarına yazılır. İki ay sonra - sentyabrın 29-da isə o, qismən səfərbərliklə II Qarabağ döyüşlərinə çağırılır və elə həmin gün tibb xidməti leytenantı kimi ordu sıralarına qoşulur. Tariyel neçə-neçə yaralılarımıza döyüş meydanında tibbi xidmət göstərərək onları ölümdən qurtarır. Onun döyüş yoldaşları bu gün də qəhrəman həkimin qorxmazlığı, şücaəti, mərdliyindən fəxarətlə danışır, onun dəfələrlə ən qaynar nöqtələrə, ən çətin mövqelərə getdiyini vurğulayırlar. Qəhrəman həkimimiz oktyabrın 7-dən 8-nə keçən gecə şiddətli döyüşlər zamanı yaralı əsgərlərimizə kömək üçün yenidən

irəliyə atılır, xeyli sayda yaralılara ilkin tibbi yardım göstərir. Lakin təəssüf ki, mənfur düşmənin atdığı minamyot atəşi nəticəsində özü də qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlir. Tariyel Salmanov şəhadətindən sonra “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif olunmuşdur.

Tibb xidməti polkovnik-leytenantı Rasim Abdullayevdə Vətən müharibəsində şəhid olmuş həkimlərimizdən biridir. O, 2016-cı ilin Aprel döyüşlərindədə iştirak etmişdir. Rasim Abdullayev 44 günlük II Qarabağ müharibəsində Hadrut və Şuşa istiqamətində 100-dən çox ağır yaralı zabitə elə yerindəcə ilk tibbi yardım göstərmişdir. Rasim Abdullayev Şuşa istiqamətində ağır yaralı zabitlərə tibbi yardım göstərən zaman Xocalı rayonunun Çanaqçı kəndində Ermənistan ordusu tərəfindən pusquya düşürülərək aldığı yaralardan şəhid olmuşdur. O, şəhid olan ən yüksək rütbəli tibb xidməti qulluqçudur.

R. Abdullayev ölümündən sonra “Vətən uğrunda” medalı ilə, “Şuşanın azad olunmasına görə” medalı ilə, “Cəbrayılın azad olunmasına görə” medalı ilə, “Füzulinin azad olunmasına görə” medalı ilə, “Xocavəndin azad olunmasına görə” medalı ilə təltif olunmuşdur.

Tibb xidməti leytenantı olan Azər Şəmilov 44 günlük II Qarabağ müharibəsi zamanı Suqovuşan və Talış ərazisində yaralı hərbçiləri döyüş meydanından çıxarmışdır. Azər Şəmilov oktyabrın 14-də Talış döyüşləri zamanı qəhrəmancasına həlak olmuşdur.

Azər Şəmilov ölümündən sonra “Vətən uğrunda” medalı ilə,
“Suqovuşanın azad olunmasına görə” medalı ilə və “Hərbi xidmətlərə görə” medalı ilə təltif edilmişdir.

“N” saylı hərbi hissənin qərargah və təchizat bölüyünün tibb məntəqəsinin rəisi, tibb xidməti leytenantı Adil Əfəndiyev 22 oktyabr 2020-ci il tarixdə Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 25 yaşında şəhidlik zirvəsinə yüksələn tibb xidməti leytenantı Adil Əfəndiyev “Vətən uğrunda”, “Şuşanın azad olunmasına görə”, “Hərbi xidmətlərə görə” medalları ilə təltif olunmuşdur.

1990-cı ildə Cəlilabad rayonunun Göytəpə qəsəbəsində anadan olan şəhid həkim Mirlətif Ağayev 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlananda könüllü surətdə cəbhəyə yollanmış, həm həkimlik, həm də insanlıq borcunu yerinə yetirərək 247 yaralını döyüş meydanından çıxararaq onları həyata qaytarmışdır. O, təkcə həkim kimi deyil, həm də fəal döyüşçü kimi də şücaət göstərib. Füzuli, Cəbrayıl və Qubadlı uğrunda döyüşlərdə iştirak etmişdir. Oktyabrın 26-da Qubadlının Balasoltanlı kəndində şəhid olmuşdur.

Şəhid həkimlərimizdən Anar Məmmədov Azərbaycan Silahlı Qüvvələrinin mayoru olmuş, noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olmuşdur. Anar Məmmədova “Vətən Müharibəsi Qəhrəmanı” adı verilmişdir.

Azərbaycan Ordusunun baş giziri olan hərbi tibb qulluqçusu Eldar Abdullayev Füzulinin, Hadrutun və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə döyüş meydanında tibbi yardım göstərib. Eldar Abdullayev oktyabrın 18-də Zəngilan döyüşləri zamanı şəhid olmuşdur.

Eldar Abdullayev ölümündən sonra “Vətən uğrunda” medalı ilə və “Xocavəndin azad olunmasına görə” medalı ilə təltif olunmuşdur.

Tibb xidməti baş leytenantı həkim Nurlan Fərəməzov da Vətən müharibəsi dövründə savaş meydanında xüsusi qəhrəmanlıq göstərmişdir. Eyni zamanda hərbi həkim kimi də yaralı əskər və zabitlərimizə elə döyüş bölgəsində ilk tibbi yardım göstərmişdir. Oktyabrın 9-da tibb xidmətin baş leytenantı Nurlan Fərəməzov başının arxa tərəfindən ciddi zədə alır, elə döyüş meydanında əbədiyyətə qovuşur. Nurlan Fərəməzov Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, “Vətən uğrunda” medalı və 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən, “İgidliyə görə” medalı ilə təltif olunmuşdur.

Tibb xidməti baş leytenantı olan Şöhrət Qasımov həmdə 2016-cı ilin aprel döyüşlərində iştirak etmişdir. Şöhrət Qasımov 44 günlük II Qarabağ müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən
döyüşlərdə iştirak edərkən, 29 sentyabrda qəhrəmancasına şəhid olmuşdur. Şöhrət Qasımov ölümündən sonra “Vətən uğrunda” medalı ilə, 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə, “Suqovuşanın azad olunmasına görə” medalı ilə təltif olunmuşdur.

**Xülasə**

44 günlük II Qarabağ müharibəsində iştirak edən bütün hərbi həkimlərimiz, tibb işçilərimiz can qurtarmaq istəyərkən öz canlarından keçməkdə bir an belə tərəddüt etmədilər. Şəfa vermək arzusu ilə çıxdıqları bu yolda şəhadətə yüksələn bütün qəhrəman həkimlərimizə və bütün şəhidlərimizə Alladan rəhmət diləyirik!

**İstifadə olunmuş ədəbiyyat:**

1. E. Əliyeva. Vətən müharibəsinin həkim qəhrəmanları.
2. Şəhid olan həkimlər – siyahi “med news”.
3. Şəfadan şəhadətə https://youtu.be/RRBkNEHxcdY

## ZƏFƏR GÜNÜ BƏDİİ-NƏZƏRİ KONTEKSTDƏ

***Maya Abdullayeva***
***“Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası” kafedrasının müəllimi***
***magamirzeqizi@gmail.com***

***Açar sözlər**:* *Müharibə ədəbiyyatı, Zəfər günü, rəşadətli ordu, “Dəmir yumruq”*

“Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.

Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır”! {1. səh-39}

Bu möhtəşəm nitqdən sonra 30 illik nisgil sona yetdi, həsrətdən cadar tutmuş torpaq sevinc göz yaşından yumşaldı, möhnətdən dumanı qaralan dağların vüqarlı zirvəsi aydınlandı, qüssədən lil tutmuş bulaqlar duruldu. Əzəmətli bayrağımız 30 il gözlədiyi zirvələrdə dalğalanmağa başladı. 30 illik həsrətə son qoyan 44 günlük İkinci Qarabağ müharibəsi Azərbaycanın zəfəri ilə dünyaya səs saldı. Azərbaycan xalqı ən məğrur, yenilməz xalq kimi, ordumuz isə dünyanın ən güclü, peşəkar ordusu kimi tarixə yazıldı. Azərbaycanın döyüş meydanında və diplomatik müstəvidə qazandığı uğurlar tarixi zəfərimizi şərtləndirdi. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan “Dəmir yumruq” adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. “Dəmir yumruq” əməliyyatını uğurla davam etdirən Azərbaycan Ordusu oktyabrın 3-də şimal cəbhəsində mühüm strateji əhəmiyyətə malik Madagiz kəndini işğaldan azad etdi. Bu xoş müjdəni tvitter hesabından xalqımıza çatdıran dövlətimizin başçısı kəndin tarixi adını da bərpa edərək onu Suqovuşan adlandırdı. Ordumuz oktyabrın 4-də Cəbrayıl şəhərini, 9-da isə Hadrut qəsəbəsini düşməndən təmizlədi. Ermənistan silahlı qüvvələrinin “məğlubedilməzlik” mifini əməliyyatların ilk günlərindəcə darmadağın edən rəşadətli ordumuz oktyabrın 17-də Füzuli şəhərində Azərbaycan bayrağını ucaltdı. Çox qürurverici anlardan biri Oktyabrın 18-də - Müstəqillik Günündə Azərbaycanın üçrəngli bayrağı qədim Xudafərin körpüsünün üzərində dalğalandı. Bundan iki gün sonra – oktyabrın 20-də isə Zəngilan şəhəri işğaldan azad olundu. Oktyabrın 22-də Zəngilan rayonunun Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycanın İran ilə dövlət sərhədi tam nəzarətə götürüldü. Ordumuz oktyabrın 25-26-da Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının 17 kəndini və Qubadlı şəhərini azad etdi. Bu əməliyyatın ən böyük əhəmiyyətindən biri də Dağlıq Qarabağdakı separatçı ünsürlərlə Ermənistanı birləşdirən əsas magistral yolun nəzarətə götürülməsi idi. Oktyabrın 28-dən noyabrın 7-dək olan müddətdə 53 kəndi və bir neçə strateji yüksəkliyi azad edən Azərbaycan Ordusunun növbəti hədəfi qədim Şuşa şəhəri idi. Qəhrəman ordumuz Azərbaycanın və dünya hərb tarixinin şanlı səhifələrindən birini təşkil edən çətin Şuşa əməliyyatını uğurla başa çatdıraraq bu şəhəri işğaldan azad etdi. Şuşanın azad edilməsi Ermənistan ordusunun müqavimət gücünü tamamilə sarsıtdı. Nəticədə bu əməliyyatdan bir gün sonra – noyabrın 9-da Azərbaycan Ordusu daha 71 kəndi, bir qəsəbəni və 8 strateji yüksəkliyi düşməndən təmizlədi.

Ordumuzun İkinci Qarabağ müharibəsində qazandığı şanlı qələbənin əsasında əsgər və zabitlərimizin qəhrəmanlığı və vətənpərvərliyi dayanır. Dövlətimizin başçısı bunu dəfələrlə vurğulayıb və çıxışlarının birində belə deyir: “Bu, yeni nəsil müharibə üsuludur, hansı ki, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh ilə birləşir, vəhdət təşkil edir. Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar

torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir”. {5}

Əlbəttə, Vətən müharibəsində şanlı qələbə xalqımızın igid övladlarının qanı-canı bahasına qazanılıb. 44 günlük Vətən müharibəsində Vətənimiz də böyük itkilər vermişdir ordumuzun 3000-ə yaxın əsgər və zabiti şəhidlik zirvəsinə ucalmışdır. Hər qələbənin böyük qurbanlar bahasına əldə edildiyi danılmazdır. Bizim müqəddəs qələbəmizin də müqəddəs qurbanları oldu. Bu şanlı ikinci Qarabağ savaşında neçə-neçə od ürəkli, vətən nisgilli, hünər qeyrət timsalı oğul və qızlarımız torpaq uğrunda canından keçdi. Minlərlə əsgər və zabitimiz bir an belə düşünmədən vətən, millət yolunda şəhidlik sirvəsini fəth etməyi seçdilər.

Od ürəkli od nəfəsli diyarım
Ocağına can qurban, Azərbaycan!
Əzilsən də əyilməyən vüqarımsan
Bu çağına canım qurban, Azərbaycan!
Savaşlardan alnı açıq çıxan zaman.
Tarixlərə bağışladın neçə qurban
Hər qonşuda bir parçası əsir qalan
Torpağına canım qurban, Azərbaycan
Neçə gizli sərvət yatır qucağında
Neçə ölkə od aparır ocağından
Azadlığın al rəmzi var bayrağında
Bayrağına canım qurban, Azərbayacan!
Başım üstə məğrur-məğrur dalğalanan
Bayrağına canım qurban Asərbaycan!
Ruhuma can cismim üçün vətən olan
Torpağına canım qurban, Azərbaycan ! {2}

Bu dəyərli poetik fikirlər qəlbi yurd sevgisi ilə döyünən qələbəni öz ruhi mənəvi qələbəsi sayan, əzmkar şair N. Həsənzadəyə məxsusdur. N. Həsənzadə təkcə müharibə günlərində deyil hər zaman xalqımızın yanında olan, onun ağrısını acısını canında daşıyan şairlərdəndir. 30 illik nisgilin yurdsuzluq ağrısının gənc nəslin canına qanına hopmasında sənətin və sözün böyük gücü danılmazdır. Ümumiyyətlə Ədəbiyyatı -poeziyanı xalqın həyatından ayrı təsəvvür etmək qeyri -mümükündür. Tarixin bütün mərhələlərində ədəbiyyat həyatın ən mükəmməl təcəssümü olub onun hərəkətverici qüvvəsi olmuşdur. XX əsrin sonlarından başlayan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi daima ədəbiyyatımızın əsas mövzusu idi. Ədəbiyyatın bütün növləri xalqın vətənpərvərlik ruhunu yüksəltmiş onu mübarizəyə səsləmişdir. Müharibə və döyüş əzmi yüksək olan xalqın ədəbiyyatı da yüksək bədii keyfiyyətə malik ədəbiyyat kimi formalaşır onun mübarizliyini alovlandırır. Bu sahədə poeziyanın rolu xüsusilə danılmazdır. İllərdən bəri ömrünü şeirə və şeiriyyata həsr edən söz ustalarımız

həyatın ən dərin qatlarını poeziyada əsas mövzu aldıqları kimi müharibə dönəmində də öz qələmləri ilə xalqın daima yanında olmuş onun vətənpərvər duyğularının çoşmasında bilvasitə böyük rol oynamışlar. İstər birinci Qarabağ savaşı, istər ikinci Qarabağ savaşı, istərsə də zəfər günündə qəlbi xalqı ilə döyünən sənət, söz adamları daima xalqa arxa dayaq olmuş, onun zəfərə inamını, döyüşdə əzimkarlığını yüksəltmişdir. Sözsüz ki, bu böyük zəfərdə ədəbiyyatın sənətin rolu danılmazdır. Keçilmiş bir əsrlik yolda hər tarixi mərhələnin ədəbiyyatının öz məntiqi və ona uyğun çağırışları olmuşdur. Bu böyük müharibə ədəbiyyatı salnaməsinə İkinci Qarabağ savaşı ilə tam yeni səhifələr yazılmaqdadır. Belə ki, Azərbaycan ədəbiyyatı doğma ölkəmizin ayrılmaz tərkib hissəsi olan Qarabağın işğaldan azad olunması uğrunda müharibədə sözün əsl mənasında "müsəlləh əsgər" kimi iştirak etmiş və döyüşmüşdür. Ali Baş Komandan İlham Əliyevin uğurla həyata keçirdiyi "Dəmir Yumruq" müharibə hərəkatı Azərbaycan ədəbiyyatının mübarizlik ruhunu, vətəndaşlıq qayəsini ön mövqeyə çıxarmışdır. Beləliklə, bir əsrlik müharibə ədəbiyyatı tarixində ilk dəfə olaraq istiqamət dəyişmişdir. İkinci Qarabağ müharibəsinin başlandığı 27 sentyabr 2020-ci ildən Vətən savaşının tarixi Zəfərlə bitdiyi 8 noyabradək Azərbaycan ədəbiyyatı döyüşən və qalib gələn əsgər qismində çıxış etmişdir. Yazıçı və şairlərin müxtəlif janrlarda yazılmış əsərlərində Vətən müharibəsinin hər günü, bütün tarixi məqamları cəsarətli bədii sözün iştirakı ilə müşayiət olunmuşdur. Demək olar ki, Ali Baş Komandanın “Dəmir yumruq” əməliyyatının hər anında düşmənin başına mərmilərlə yanaşı, ədəbiyyat da güllə kimi yağdırılmışdır. Ona görə də İkinci Qarabağ savaşı dövründə və ondan sonra yaradılmış vətəndaşlıq mövqeyinin önə çəkildiyi Azərbaycan ədəbiyyatı döyüşən, vuruşan, qəhrəmanlıqlar göstərən və qələbə qazanmağa qadir olan fərqli bir müharibə ədəbiyyatı nümunəsinə çevrilmişdir. Bu baxımdan Xalq şairi Sabir Rüstəmxanlının "Qarabağa dönüş" poeması İkinci Qarabağ müharibəsi dövrünün ədəbi mətnlərinin mükəmməl nümunəsidir. "Qarabağa dönüş" poemasının üzvi tərkib hissəsi olan və Vətən müharibəsinin davam etdiyi günlərdə yazılmış "Qələbə tvitləri" şeiri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan müharibə prosesində qəhrəman əsgər qismində iştirak edən mübariz şeirin canlı obrazıdır:

Bu bizim haqq işimiz, ədalət savaşımız,
İntiqam ala-ala dikələcək başımız.
Vur, əsgərim, vur! - deyə əmr eləyir Komandan,
Qoy bir də yurdumuza tökülməsin nahaq qan.
Qayıtsın Qarabağa yenə xoşbəxt çağımız,
Başımızın üstündə üçrəngli bayrağımız!
Qovur öz yuvasına quduzlaşan itləri,
Ali Baş Komandanın qələbə tvitləri! {6}

Özünün mübariz şeirləri ilə gənc nəslin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayan sənətkarlarımızdan olan S. Rüstəmxanlı istər publisist, istər şair qələmi ilə xalqının daima yanında olmuş gənclərin vətənpərvər ruhda böyüməsində əvəsiz xidmətlər göstərmişdir. Babalardan bizə qalan Əzmkarlıq duyğusunun, döyüşkənlik ruhunun təbliği, onun əsillərdən nəsillərə ötürülməsi, daşlaşan

dağ qardaşlarını səsləmək, onların ruhunun gənc əsgərlərə ötrülməsi kimi ən incə məqamlar onun şeirlərinin mayəsində qayəsində yer alırdı. Qələbə sevincini xalqı ilə birlikdə göz yaşları içində yaşayan şair müdrikliklə yazırdı:

Mənim Yoluma bax əzəldən Haqdır
Haqqı gücsüz bilib gülmək günahdır
Gələcək cəzanı çəkməyin vaxtı
Hesabı axırda kəsən millətəm
Düzmə qabağıma çopur daşları
Səsləsəm dikələr haqq qardaşlarım
İstəsəm tarixi bir də başlaram
Mən durğun həyatdan bezən millətəm
Düşmənin bağrını yaran millətəm! {2}

İkinci Qarabağ müharibəsi günlərində neçə-neçə Zəfər marşları tarixi Zəfərin qazanılmasından əvvəl yazılmışdır. Bu, xalqımızın və ədəbiyyatımızın Ali Baş Komandan Prezident İlham Əliyevin apardığı haqq-ədalət müharibəsindəki yenilməzlik əzminə, sərkərdəlik məharətinə və qüdrətinə dönməz inamının real poetik ifadəsidir. Buna görədir ki, Azərbaycan ədəbiyyatının tarixində ilk dəfə olaraq ədəbi əsərlərdə mənsub olduğu xalqın əsl qalib rəhbəri mənasında Ali Baş Komandan obrazı canlandırılmışdır. İkinci Qarabağ müharibəsi başlanan ilk anlardan bu günədək Azərbaycan ədəbiyyatında Ali Baş Komandan haqqında yazılmış əsərlərdən çoxcildlik bir kitab bağlamaq olar. Bu mənada Zahid Xəlilin "Dəmir yumruq dastanı" poeması bir şairin deyil, bütövlükdə Azərbaycan ədəbiyyatında Ali Baş Komandan mövzusunda yaranmış ədəbiyyat külliyyatının ümumiləşdirilmiş adı kimi səslənir. İstedadlı şair Barat Vüsalın "Dəmir yumruq" şeirindəki aşağıdakı misralar Ali Baş Komandan mövzusunda yalnız ədəbiyyatın yox, Azərbaycan xalqının ürəkdən gələn inamlı sözünün mükəmməl nümunəsidir:

Ən qədim olan silahdı,
Ən müasir son silahdı
Dəmir yumruq!
...Nə qədər ki, yumruqlar var,
Hamısını yenib olub - Dəmir yumruq!
Azərbaycan özü bu gün
Dönüb olub - Dəmir yumruq!
İndən belə yaşamalı zamandı lap,
...Həyat olub, ömür olub - Dəmir yumruq!
Qarabağın çiçəkləri açıldıqca açılacaq,
Düzəlməyən çox işləri düzəldəcək,
Aşılmayan aşırımları aşıracaq,
Dəmir yumruq!

Qələbənin bayrağıtək dalğalanıb,
Qələbənin simvolutək yaşayacaq
Dəmir yumruq! {6}

Həm ədəbi həm ictimai fəaliyyəti ilə xalqının, millətinin xidmətində dayanan Vüqar Əhməd vətənpərvər ruhda yazılan şeirlərində Müstəqil Azərbaycan və Azərbaycançılıq idealogiyasını daima yaşatmışdır. Xalqın zəfərinə ürəkdən sevinən fəal şairimizin qələmində müqəddəs qələbəmiz bu şəkildə mənalandırılır:

30 ildən sonra biz
Oğul olduq Vətənə
Rədd dedik yol ötənə
Daş atana daş atdıq
Yetmədik hər yetənə
Zəfər ruhun qidası
Açıldı göy səması
Qarabağın səfası
Şikəstənin sədası. V.Əhməd {3. S-203.}

“Mən xalqımı heç vaxt məğlub saymamışam” deyən böyük şair Ramiz Rövşən birinci Qarabağ savaşında şəhid olan əsgərlərimizi də sözün əsl mənasında qəhrəman hesab edir”. Müharibə ədəbiyyatı necə olacaq sualına “müharibə necə bitəcəksə, biz müharibədən necə çıxacağıqsa bizim müharibə ədəbiyyatımız da o cür yazılacaq” cavabını verən qüdrətli qələm sahibi Ramiz Rövşən öz vədinə əməl etdi bu müqəddəs qələbənin ən şanlı səhifəsini yazdı. Şuşa şeiri ilə müqəddəs zəfərin Müqəddəs şəhəri Şuşanın böyük sevincini bu şəkildə bölüşdü öz xalqı ilə:

Yaşadıq əlimiz sənə çatmadan
Bağlıydı hər yolun, cığırın, Şuşa!
Yaxşıki ömrümüz sona çatmadan
Çatdı bu həsrətin axırı, Şuşa!
Sənsiz bu dünyada axı biz nəyik
Toyu vaya dönmüş gəlinsiz bəyik
Ürəyim deyirdi görüşəcəyik
Amma inanmırdı ağılım, Şuşa!
Sən mənim canımdan aralı ruhum
Göylərdə dolanan yaralı ruhum
Sən mənim axır ki, çin olan yuxum
Gerçəyə çevrilən nağılım, Şuşa!
Qovulur qapından düşmən qovulur
Qayalar çatlayır, daşlar ovulur
Bax! Başın üstə Günəş doğulur

Daha dumanların dağılır, Şuşa! {4}

Şübhəsiz ki, böyük müharibələrdə böyük qələbələrin əsasında duran ən başlıca amil xalq-dövlət-ordu birliyinin sarsılmaz vəhdətinin təmin olunmasıdır. Bu birliyin yaradılmasında ədəbiyyatın və ədəbi fikrin rolu, bədii sözün güclü təsiri danılmazdır. Ədəbiyyatın vəzifəsi təbii ki, vətəndaş tərbiyəsinə estetik cəhətdən yardımçı olmaqdır. Dahi R.Taqorun sözlərilə desək : "Ədəbiyyat insan ürəyini milyon qırılmaz tellərlə birləşdirən ən yaxşı vasitədir. Ədəbiyyatın mövqeyi hamını birləşdirən insanlar arasında bir əlaqə, məhəbbət yaratmaqdır. Ədəbiyyat gərəkdir insanları başa düşsün, onların qəlbini tərpədə bilsin, həyəcanlandıra bilsin". Bizim milli ədəbiyyatımız da bu keçməkeşli zəfər yolunda döyüşən qüvvələrimizə böyük təsir etdi onların mübarizəsinə cəsurluq, əzmkarlıq qatdı. Şanlı zəfərin şanlı ədəbiyyatını yaratmağa müyəssər oldu. İkinci Qarabağ savaşı və əldə olunan müqəddəs qələbəmiz dünya azərbaycanlılarının həm söz, həm əməli birliyinin ən böyük isbatıdır. Xalqımız ən çətin günlərdə vətən torpaqlarının azad edilməsində “Dəmir yumruq kimi” birləşərək müqəddəs zəfərimizin əldə olunmasına nail oldu. Arzu edək ki, sözümüz qüdrətli, qələbəmiz əbədi, bayrağımız daima zirvələrdə, dövlətimiz hər zaman inkişafda olsun!

**Xülasə**

Məqalədə İkinci Qarabağ savaşında xalqımızın qazandığı şanlı zəfərin əsl mahiyyəti həm nəzri həm bədii aspektdən araşdırılır. 44 günlük müharibə zamanı ordumuzun rəşadəti, xalqın birliyi və Ali Baş Komandanın güclü iradəsi sayəsində itirilmiş torpaqlarımız geri qaytarılmış 30 illik nisgil sona çatmışdır. Bu qiymətli faktlar Azərbaycan ədəbiyyatının mübarizlik ruhunu, vətəndaşlıq qayəsini ön mövqeyə çıxarmışdır.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Zəfər Yolu. “Azərkitab kitab mərkəzi”. Bakı, 2021.
2. https://portal.azertag.az
3. N . Aslanov. “Qarabağ Azərbaycandır”. Bakı, 2020.
4. https.\\kulis.az .
5. https\\aztv.az/.
6. https\\edebiyyatqazeti.az.

# 44 GÜNLÜK ZƏFƏR YOLU

***Səbuhi Quliyev***
***“Riyaziyyat, informatika və onların tədrisi texnologiyası”kafedrasının müəllimi***
**sebuhivaqif1998@gmail.com**

***Açar sözlər:*** *Müzəffər Ali Baş Komandan, Zəfər günü, hər yer Qarabağdır, igid oğullarımız.*

Bu gün həmin gündür... Azərbaycan xalqının tarixin ən şanlı, şərəfli və qürurverici anlarını yaşadığı gün.

Bir milyon insana 30 ilədək bir müddətə köçkünlük acısı yaşadan, dədə-baba torpaqlarımıza işğal yolu ilə sahiblənən sərvətini mənimsəyən, mədəni abidələrimizi, yurd yerlərimizi viran qoyan Ermənistan Azərbaycanın haqlı haqq savaşında məğlub oldu.

Tarix boyu Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmişdir. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür. Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir. 2020-ci ilin iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın geniş miqyaslı hucuma hazırlaşdığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdir ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

44 gün sürən Vətən müharibəsində Müzəffər Azərbaycan ordusu düşmən tapdağında olan doğma dədə-baba torpaqlarımızı işğaldan azad etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillərdən oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərbi tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

İndi bildim ki hər yer Qarabağdır... Bombalanan Gəncə, Bərdə, Tərtər, hədəf seçilən Mingəçevir mülki şəhid verən Naftalandır Qarabağ. Hər səhərini Qarabağ adı ilə qarşılayan gecələrini diri gözlə açan Bakıdır Qarabağ. İndi bildim ki hər kəs Qarabağlıdır. Yaralı əsgərini güllə-borandan çıxardanda şəhid olan Turqutdur Qarabağ. Bayrağımız sancıldıqca azan verən Namiqdir Qarabağ. Döyüş

yoldaşlarını qorumaq üçün erməni zabitlərini əliyalın boğan Cəbrayıldır Qarabağ. Hər qarışı uğrunda şəhid verən igidlərin meydanıdır Qarabağ. İndi bildim ki təkcə ön cəbhə deyil arxa cəbhədə Qarabağdır. Əsgərinə qan verən milyonlardır Qarabağ. Son qəpiyini əsgərinə pay göndərən Hikmət babadır Qarabağ. Bayraq tikən Laçın nənədir Qarabağ. Bombalanan evindən bayraq çıxaran gəncəli Xəyyamdır Qarabağ.

Bizlər hər birimiz bu gün müstəqil Azərbaycanın vətəndaşlarıyıq. Bütün istiqlal və vətən müharibəsi şəhidlərini hörmətlə anır və vətənə olan sevgimi şairin sözləri ilə dilə gətirmək istəyirəm:

Sən bizimsən, bizimsən durduqca bədəndə can
Yaşa, yaşa çox yaşa ey şanlı Azərbaycan.

**Xülasə**

Məqalədə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və 30 ilə yaxın davam edən danışıqlar prosesindən söz açılmışdır. 44 günlük zəfər yürüşündə qəhrəman ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə doğma dədə-baba torpaqlarımızı işğaldan azad etdi. Bütün istiqlal və vətən müharibəsi şəhidlərini hörmətlə anırıq.

**İstifadə olunmuş ədəbiyyat:**

1. https://ms-my.facebook.com › ... ›
2. https://525.az ›
2. https://ambur.az › gozun-aydin-veten...

# 44-GÜNLÜK ZƏFƏR TARİXİMİZ

***Səbuhi Səfərov***
***“İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası” kafedrasının müəllimi***
***sbhi.sfrv@gmail.com***

***Açar sözlər:*** *Şanlı tariximiz, Müzəffər Ali Baş Komandan, status-kvo, Qalib Ordu, Qarabağ Azərbaycandır.*

Mövzumuz da o qədər dərin, aktual bir mövzudur ki, bu haqda saatlarla, günlərlə və hətta aylarla danışsaq belə kifayət etməz, çünki bu buzim tariximizdir, bu bizim şanlı tariximizdir. O tarix ki, düşmənin üstümüzə atdığı ləkəni təmizlədik, qamətimizi düzəltdik, biz otuz ildir itirdiyimiz dəyərləri özümüzə qaytardıq.

Biz illərlə həsrətində olduğumuz torpaqlarımıza qovuşduq. Biz heç nəyi unutmadıq, unutdurmadıqca möhkəmləndik, gücləndik və nəhayət, dünyanın illərdir göz yumduğu ədalətsizliyi özümüz təkbaşına aradan qaldırdıq. Və bütün bunlara da xalqın, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməsiylə nail olduq.

Vətən müharibəsi bir xalq kimi bizim gücümüzü göstərdi, Azərbaycanın bir dövlət kimi potensialını nümayiş etdirdi. Bu müharibədə Azərbaycan xalqı da, dövləti də Qarabağın işğaldan azad olunması ilə bağlı var-qüvvəsini ortaya qoydu. Əsgər və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirdi, strateji yüksəklikləri götürərək daha əlverişli mövqelərə sahib oldu. Bütün dünya gördü ki, 30 il ərzində Ermənistan rəhbərliyi “güclü ordusu” haqqında uydurmalar ortalığa atanda, “yenilməz Ermənistan ordusu” barədə miflər yaradanda Azərbaycanda dünya standartlarına uyğun ordu yaradılıb və bu ordunun gücü döyüş meydanında göründü. Baxmayaraq ki, biz 30 il səbirlə gözləmişdik. Danışıqlar prosesinə sadiq qalmışdıq. Bütün bunlar münaqişənin dinc yolla, müharibəsiz həllinə hesablanmışdı və Azərbaycan hər dəfə status-kvonun dəyişdirilməsinin vacibliyini vurğulayanda məqsəd münaqişəsinin fəal hərbi əməliyyatlar mərhələsinə keçməsinin qarşısını almaq idi. Ancaq ermənilərin illərlə qoruyub saxladığı həmin status-kvo bir neçə günün içində darmadağın oldu. Təmas xətti yarıldı və rəşadətli Azərbaycan ordusu torpaqlarımızı düşmən tapdağından xilas etdi.

Prezident İlham Əliyev müharibənin gedişində dəfələrlə bəyan etdi ki, “dünyada heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq, biz qalib gəlirik, biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!”. Bu əminlik 44 günlük müharibədən Azərbaycanın qalib ayrılmasını şərtləndirdi. Ermənistan bütün hərbi resurslarını itirdi, döyüşdə uduzduğunu görən düşmən xilas olmaq üçün bütün vasitələrə əl atdı.

Prezident İlham Əliyev vurğulayır ki, biz bu qələbəyə hər zaman hazırlaşırdıq. Dövlət başçısı bu sözləri deyəndə həm də ölkəmizin iqtisadi gücünü də nəzərdə tutur. Bu illər ərzində Azərbaycanda formalaşan iqtisadi potensial bizi bu qələbəyə addım-addım yaxınlaşdırdı. Bir vaxtlar “neftin pulları hara gedir” sualını verən bədxahlara 44 günlük Vətən müharibəsinin qalibiyyəti ən yaxşı cavab idi. Biz o pulları düşmənin başına yağış kimi yağan müasir silahlarda gördük. Biz o pulları Azərbaycanın güclü, bütün dünyanı mat qoyan samballı ordu quruculuğunda, Ali Baş Komandan İlham Əliyevin dünyanın 50 ən güclü ordusundan birinə çevirdiyi Azərbaycan Silahlı Qüvvələrinin rəşadətində, Vətən sevgisində gördük. Amma elə dəyərlər də var ki, onlar nə pulla alınır, nə də satılır. Bizim bu müharibədəki ən böyük üstünlüyümüz mənəvi bütövlüyümüz idi. Hakimiyyətdə olduğu dövrdə Azərbaycanda həm də millət quruculuğu prosesini həyata keçirən Prezident İlham Əliyev bizi mənən də qalib etdi. Biz bundan sonra başı dik, üzü ağ gəzəcəyik! Çünki biz qalib ölkənin vətəndaşlarıyıq. Bizim Qalib Ordumuz var! Bizim xalqın övladları - müstəqillik dövründə yetişən gənc nəsil tariximizi də, taleyimizi də ən ağır töhmətdən xilas edib, inanılmazı gerçəyə çevirib, bizə böyük Qələbəni yaşadıb!

Vətən müharibəsi Prezident İlham Əliyevin 2003-cü ildə prezident seçkiləri zamanı xalqa verdiyi vədlərin real həyatda öz təsdiqini tapmasıdır. Bu, həm də Heydər Əliyev yoludur və bu yolun uğuru ondadır ki, onu İlham Əliyev kimi təcrübəli dövlət xadimi gedir. 1993-cü ildə Azərbaycan dərin böhranlar içərisində dağılmaq və məhv olmaq təhlükəsi ilə üzləşəndə Heydər Əliyev Azərbaycan üçün kim idisə indi həmin missiyanı Prezident İlham Əliyev yerinə yetirir. Ona görə də bu gün qüruru

kədərindən böyük olan xalqımızın düşmənlə döyüşdə göstərdiyi misilsiz qəhrəmanlıq heç vaxt unudulmayacaq. Bu, öz hüququnu, mənliyini heç nəyə qurban verməyən, ədalətsizliklə heç vaxt barışmayan, öz torpağını namusu qədər müqəddəs bilən bir millətin şərəf məsələsi idi. Millət şərəfinə qovuşub.

Artıq həyatımızda yeni dövr başlayıb. Bu dövrün özünəməxsus özəllikləri var. Biz Azərbaycanın beynəlxalq münasibətlərdə yürütdüyü siyasətin yeni konturlarını görürürük. İkitərəfli və çoxtərəfli əlaqələrdə yeni əməkdaşlıq parametrləri müşahidə olunur. Ən önəmli məqam isə ondan ibarətdir ki, dünya bu müharibənin gedişində Azərbaycanı yenidən kəşf edib, ölkəmiz haqqında, onun malik olduğu güc barədə beynəlxalq birlikdə dəqiq təsəvvür formalaşıb. Onlar görürlər ki, müstəqillik tarixi dövründə inanılmaz dərəcədə güclənən Azərbaycanla heç bir halda təhdid dilində danışmaq olmaz. Çünki onun xalqın maraqlarını bütün dəyərlərdən üstün tutan, ölkənin bütün potensialını Vətən naminə səfərbər edən, “Qarabağ Azərbaycandır” kəlməsini Azərbaycan tarixinə əbədi həkk edən Lideri var.

Sonda nitqimi Qələbəmizə həsr etdiyim bir kupletlik şeirmə yekunlaşdırmaq istəyirəm.

Vətən müharibəsində biz qələbə qazandıq,
Bu gün anım günüdür, qəhrəmanları andıq.
Tarix yazdı igidlər, hamısı əzizimizdir,
44 günlür müharibə, sanlı tariximizdir.

**Xülasə**

Məqalədə göstərilir ki, Vətən müharibəsi dövründə xalq, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək şanlı Azərbaycan Ordusu tarixi qələbə əldə etdi. Bu zəfər tariximizə şanlı səhifə kimi daxil oldu.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Qalib Sərkərdə. Bakı, 2021.
2. Zəfər Günü. Bakı, 2021.
3. https://aia.az/52716-27-sentyabr-zfr-aparan-yol.html
4. https://aia.az/52716-27-sentyabr-zfr-aparan-yol.html

# TARİXİMİZİN ZƏFƏR SALNAMƏSİ

***Pərişan Yolçuzadə***
***"Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası"kafedrasının müəllim***
***parishan.yolchuzada@gmail.com***

***Açar sözlər:*** *Qarabağ, zəfər, qəhrəman, vətən, qələbə, birlik*

Xalqımızın çoxəsrlik tarixinin ən böyük hadisələrindən biri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə erməni işğalçıları üzərində qazandığı hərbi-siyasi Zəfərdir. Vətənimizin bütövlüyü uğrunda aparılan müharibənin parlaq yekunu olan Zəfər günümüz Azərbaycan xalqının Dağlıq Qarabağda və ətraf ərazilərdə tam və qəti qələbəyə nail olması kimi tarixi missiyanı yerinə yetirir.

27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin cəbhəboyu təxribatlar törətməsinin layiqli cavabı olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Uğurlu əks-hücum əməliyyatının ilk günlərindən etibarən ordumuz mühüm strateji yüksəklikləri azad edərək, 44 günlük Vətən müharibəsi zəfərinin başlanğıcını qoydu.

Əsası Ümummili liderimiz Heydər Əliyev tərəfindən qoyulan və onun layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilən düzgün hərbi siyasətin nəticəsi olaraq Azərbaycan 44 günlük müddətdə öz ərazi bütövlüyünü bərpa etdi.

Vətən müharibəsində qazandığımız şanlı zəfərin əsasında ölümləri ilə ölümsüzləşən, canını vətənə fəda edən, böyük şücaətlər göstərərək canı-qanı bahasına vətən torpaqlarını düşmən işğalından azad edən igid oğullarımız durur. Cənab prezidentimiz, Ali Baş komandan İlham Əliyevin də qeyd etdiyi kimi, bu qələbənin birinci qəhramanı Azərbaycan əsgəridir. Azadlığı, müstəqilliyi, babalardan miras qalan torpağı uğrunda oğlunu, qızını şəhid verən xalq xoşbəxt xalqdır. Bu mənada Azərbaycan xalqının qürur hissi keçirməyə, başını uca tutmağa tam mənəvi haqqı var. Vətən oğullarının doğma el-obaya sədaqəti, mərdliyi və mətinliyi 44 günlük müharibədə özünü daha bariz şəkildə göstərdi. Bu oğullar öz xalqının əsrlərin sınağından çıxmış milli xüsusiyyətlərinin mahir daşıyıcılarıdır, onların igidlik nümunələrində xalqın, millətin köklü duyğuları yaşayır. Azərbaycan xalqı hər zaman torpaqlarımızın azadlığı uğrunda canını qurban vermiş şəhidlərimizin xatirəsini uca tutur və onlarla fəxr edir. Şəhidlərimiz, dünənimizin qəhrəmanlıq simvolu, bu günümüzün enilməzlik salnaməsi, sabahımızın əbədi örnək təmsilçiləridir. Bu qərəmanlarımız sırasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialının məzun tələbələrinin olması qürurvericidir. İllər keçəcək qəhramanlarımız haqqında yüzlərlə hekayələr, dastanlar yazılacaq, əbədi irsimiz kimi nəsildən-nəsilə ötürüləcəkdir.

İkinci Qarabağ müharibəsində erməni vandalizmi yenə özünü göstərdi. Döyüş meydanında məğlubiyyətə uğrayan Ermənistan silahlı qüvvələri iki dəfə Gəncəni, bir dəfə Bərdəni, Tərtəri və digər yaşayış məntəqələrimizi raket atəşinə tutdu, onlarla insanın ölümünə, yüzlərlə insanın yaralanmasına və böyük dağıntılara səbəb oldular. 44 gün davam edən müharibədə ağır artilleriya atəşləri

nəticəsində uşaqlar, qadınlar və qocalar daxil olmaqla ümumilikdə 94 mülki şəxs öldürülmüş, 400-dən çox mülki şəxs yaralanmışdır. Gəncədə, Bərdədə törədilən terror aktları Xocalı soyqırımının davamı kimi dəyərləndirildi. İşğalçı dövlət cinayət əməlləri ilə beynəlxalq hüququn fundamental prinsiplərinə, həmçinin beynəlxalq humanitar hüquq və Cenevrə konvensiyalarına məhəl qoymadığını açıq-aşkar nümayiş etdirdi. Dövlətimizin başçısı İlham Əliyev törədilən bu cinayətləri erməni faşizminin növbəti təzahürü kimi qeyd edərək bildirmişdir ki, Ermənistanın bu əməllərlə Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməz. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırmışdır.

Tarixi qələbəmizin əsasını təşkil edən ən önəmli amillərdən biri də xalq-dövlət-ordu birliyinin əvəzolunmaz vəhdətidir. Təsadüfi deyil ki, xalqımızın bu birliyinin təcəssümü olaraq aparılan əməliyyatlara “Dəmir yumruq” adı verilmiş, dünyanın dörd bir yanında yaşayan azərbaycanlılar, habelə Azərbaycanı haqq savaşında tək qoymayan digər dost ölkələr erməni lobbisinə qarşı fədakarlıqla fəaliyyət göstərmişdilər.

Vətən müharibəsi həm də diplomatik cəbhədə də bizim acıq-aşkar üstünlüyümüzlə nəticələndi. Prezident İlham Əliyev müharibə dövründə dünyanın ən böyük media qurumlarına müsahibələr verərək, əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı. Ali Baş Komandanın qətiyyətli çıxışları, aydın, məntiqi, sərrast cavabları, xalqımıza, ordumuza sarsılmaz inam hissi yaratdı.

Müharibə arenasında bir neçə beynəlxalq təşkilatlar və ölkələr ölkəmizə dəstək verərək, haqqın yanında olduqların göstərdilər. Bu sırada Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, qardaş Türkiyə, eləcə də Pakistan, İsrail, Ukrayna və digər ölkələrin adını qeyd edə bilərik. Xüsusilə “Bir millət - iki dövlət” şüarı əsasında möhkəmləndirilmiş Azərbaycan-Türkiyə birliyi və qardaşlığı da Vətən müharibəsindəki Zəfərin stimulverici amili oldu. Məhz bu qardaşlığın məntiqi davamı olaraq 10 Noyabr tarixinin Türkiyə Cümhuriyyətinin qurucusu, adı türk dünyasının tarixinə qızıl hərflərlə həkk olunmuş böyük şəxsiyyət Mustafa Kamal Atatürkün anım günü olması ilə əlaqədar olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Zəfər Gününün tarixinin dəyişdirilməsi barədə qərar qəbul etmişdir.

44 gün müddətində hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Qarabağın baş tacı Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etmişdir. 2020-ci il noyabrın 10-da imzalanan Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin birgə bəyanatı ilə müharibə Azərbaycanın qələbəsi ilə nəticələnmiş, Ermənistan kapitulyasiya olunaraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur.

Prezident İlham Əliyevin sərəncamı ilə təsis edilmiş 8 noyabr Zəfər Günü Azərbaycan tarixində rol oynayan ən mühüm hadisə, xalqımızın birliyinin təcəssümüdür. Bu, Ali Baş Komandan, sərkərdə İlham Əliyevin başçılığı ilə xalqımızın və rəşadətli Azərbaycan Ordusunun qazandığı böyük tarixi Zəfər, ərazi bütövlüyümüzü təmin edən qələbədir. Bu qələbə ilə Qarabağa yenidən həyat qayıtdı, “Böyük qayıdış”ın əsası qoyuldu. Yaşasın Azərbaycan! Yaşasın Ali Baş komandan! Qarabağ Azərbaycandır!

**Xülasə**

44 gün – Azərbaycan, o cümlədən dünya tarixinə qızıl rəqəmlərlə yazılmış şanlı zəfərimizin ömrüdür. Ermənistanın ölkəmizə qarşı 2020-ci il 27 sentyabrdan başlayan növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanının rəhbərliyi ilə işğal altında olan torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsi başladı. 44 günlük şanlı Vətən müharibəsi nəticəsində 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində xalqımız yüksək səviyyədə birlik nümayiş etdirmişdir. Necə deyərlər “el bir olsa dağ oynadar yerindən”. Ön cəbhədə hərbçilərimizin şücaəti, ordumuzun rəşadəti, arxa cəbhədə mülki insanlarımız, bütövlükdə isə xalqımızın həmrəyliyi nəticəsində qələbə çaldıq. Bir daha dünyaya sübut etdik ki, bu torpaqlar əzəli və əbədi Azərbaycan torpaqları olmuşdur, “Dəmir Yumruq” əməliyyatı bir daha göstərdi ki, Qarabağ bizimdir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. "Müstəqillik tariximizin ən möhtəşəm xəbəri – Şuşa azad edildi!". sputnik.az (az.). Sputnik Azərbaycan. 8 noyabr 2020.
2. "İşğaldan azad edilmiş şəhər və kəndlərimiz" (az.). AzərTac. 2020-12-30
3. "Prezident İlham Əliyev Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin iştirakı ilə imzalanmış sənədin mətnini açıqlayıb tam mətn". lent.az (az.). 10 noyabr 2020. 2020-11-16
4. "Hikmet Hajiyev: "International community should adequately respond to the use of terrorist forces by Armenian against Azerbaijan". apa.az (az.). 30 sentyabr 2020.

## BÖYÜK ZƏFƏR GÜNÜ

***Nahidə Qəhrəmanova***
***“Tələbə və məzunlarla iş” şöbəsinin baş mütəxəssisi***
***n.qahramanova@mail.ru***

***Açar sözlər:*** *Zəfər, Ali Baş komandan, mübarizə, millət, ordu.*

Xalqımızın 30 ildən bəri gözlədiyi xəbəri nəhayət ki, eşitmək bizə nəsib oldu. Uzun illərdi Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev tərəfindən aparılan məqsədyönlü işlər, uzaqgörən siyasət, ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər öz bəhrəsini verdi.

8 noyabr 2020-ci il Azərbaycan tarixinin şanlı səhifəsinə - Qələbə Günü kimi qızıl hərflərlə yazıldı. Həmin gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli Ordusunun 44 günlük Vətən müharibəsində möhtəşəm qələbəsi təmin olundu. Ermənistan bütün dünya ictimaiyyəti qarşısında məğlubiyyətini etiraf etməyə məcbur edildi.

Əslində, Azərbaycan xalqı iki gün əvvəl - noyabrın 8-dən qələbəni qeyd etməyə başlamışdı. Dövlət Bayrağı Günü ərəfəsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində Azərbaycanın tarixi şəhəri, bütün Qafqazın mədəniyyət mərkəzi hesab edilən, öz hərbi-strateji önəmi ilə yanaşı, həm də mənəvi əhəmiyyəti olan Şuşanın şanlı ordumuz tərəfindən azad edildiyini bildirmişdi: "Əziz həmvətənlər, əziz bacılar və qardaşlar! Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir!"

Şuşa 28 il 6 aydan sonra düşmən işğalından qurtuldu. Mədəniyyət beşiyi olan Şuşamızın düşmən tapdağından azad edilməsilə bayram bayrama qarışdı. Bütün Azərbaycan və bütün türk dünyası sevincə qərq oldu. Xalqımızın 28 illik gözləntiləri, arzu və istəkləri reallığa çevrildi. Azərbaycanın mədəniyyət beşiyi, Qarabağın tacı olan qədim Şuşamızın gözü iyirmi səkkiz il idi yollarda qalmışdı. Hər ili bir əsrə bərabər olan bu 28 ildə Şuşa dərdi ürəyimizdə qubar bağlamışdı. Hər gün yüz dəfə Şuşasız ölüb-dirilmişik. Bu əzaba, həsrətə son qoyulacağı günü səbirsizliklə gözləmişik. O gün bu gün imiş, demək ki. Şuşa yenidən əsl sahibinə, Azərbaycanına qovuşdu. Əlbəttə, Azərbaycanın hər qarışı bizə doğmadır, əzizdir, amma Ali Baş Komandanın da dediyi kimi, Şuşanın yeri bir başqadır: "İşğal edilmiş torpaqların hər bir qarışı bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlərlə müqayisədə eynidir, bərabərdir. Amma Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimzdir, qədim mədəniyyət ocağımızdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edib. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".

Bəli, sən mədəniyyətimizin beşiyi, tariximizin kökü sən, doğma Şuşa. Təkcə şuşalıların yox, bütün Azərbaycan xalqının baş tacısan. Sən tariximizsən, damarımızda axan qanımız, Vətənimizin alınmaz qalasısan. Şuşanın işğaldan azad edilməsi təkcə strateji və hərbi baxımdan deyil, mədəni, mənəvi və tarixi baxımdan da böyük əhəmiyyət daşıyır. Bu qədim şəhərin xalqımızın qəlbində mənəvi baxımdan xüsusi yeri var. Əbəs yerə Şuşanı "Şərqin konservatoriyası" adlandırmırlar. Şuşa - unikal Azərbaycan musiqisinin beşiyi, şeir-sənət ocağı, açıq səma altında muzey, canlı tarixdir. Şuşa - Pənahəli xanın, İbrahimxəlil xanın, Vaqifin, Xan qızı Natəvanın, Üzeyir Hacıbəyovun, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Bülbülün və daha neçə-neçə yazıçı, sənət adamı, bəstəkar, müğənni, teatr və kino xadiminin vətənidir. Şuşa hər bir azərbaycanlının gen yaddaşının silinməz səhifəsi, ecazkar mədəniyyətimizin parlaq rəmzidir. Şuşanın işğalı milli varlığımıza vurulan sağalmaz, daim inləyən yara idi. Biz bu yaranı sağaltdıq. 8 noyabrı tariximizə qızıl hərflərlə yazdıq. Ali Baş Komandanımız, Müzəffər Ordumuz xalqımıza bu böyük qələbənin sevincini yaşatdı. Düşmən isə bu qələbəmizdən çox sarsıldı, acı məğlubiyyətin təsirindən yəqin ki, uzun illər çıxa bilməyəcək. Ordumuz Şuşanı azad etməklə təkcə hərbi baxımdan deyil, mənəvi-psixoloji baxımdan da düşmənə ağır zərbə vurdu. Şuşanın azad edilməsi Ermənistan cəmiyyətində və ordusunda böyük gərginliyə və xaosa səbəb

olub. Çünki alınmaz qala hesab olunan Şuşanın ordumuz tərəfindən qısa müddət ərzində azad edilməsi düşmən ordusunun özgüvənini də məhv etdi. Qədim mədəniyyət və tarixi ocağımızı düşmən tapdağından azad etməklə mədəni irsimizi və dəyərlərimizi riyakar düşməndən geri almış olduq. Müzəffər Ordumuzun Şuşa qələbəsi Azərbaycan Ordusunun gücünü, əzmini, qətiyyət və iradəsini, uğurlu hərbi komandanlıq və idarəetməsini, sahib olduğu bütün maddi və mənəvi üstünlükləri dünyaya bir daha sübut etdi. Düşmən özü də Azərbaycan ordusunun bu qədər tezliklə Şuşaya çatacağını düşünmədiyini etiraf edir. Lakin Müzəffər Ordumuz böyük qəhrəmanlıq göstərərək düşmənin 30 ildə qurduğu bütün maneələri, istehkamları qısa müddətdə məhv etməyi, Şuşaya çatmağı bacardı. Şuşa Dövlət Bayrağı günü ərəfəsində azad edildi. Müqəddəs bayrağımız öz tarixinin yəqin ki, ən şərəfli gününü yaşadı həmin gün. Çünki o üçrəngli bayrağımız 28 illik fasilədən sonra yenidən Şuşada dalğalandı. Şuşanın azad edilməsi Azərbaycanın möhtəşəm qələbəsidir. Bu, rəşadətli Azərbaycan Ordusunun qələbəsidir. Şuşanın azadlığa qovuşması zati-aliləri İlham Əliyevin tarixi qələbəsidir. Ali Baş Komandanın da dediyi kimi:

"Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

İki gün keçməmiş isə Ali Baş Komandan Müzəffər Ordumuzun Vətən müharibəsində qələbə qazandığımızı, düşməni məğlubiyyətə uğratdığını bəyan etdi. Yenə də bayram bayrama qarışdı. Azərbaycan tarixində, milli yaddaşımızda qızıl hərflərlə həkk olunacaq 8 noyabr yurdumuzun qəhrəmanlıq salnaməsi və şanlı qalibiyyəti kimi tarixə düşdü. Otuz illik həsrətə son qoyan bu əzəmətli Qələbə düşmən işğalında olan əzəli torpaqlarımızın azad edilməsi və ərazi bütövlüyümüzün təmin edilməsi deməkdir. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu 28 ilin hər gününün qisasını aldı! Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində dövlətimizin başçısı bütün diplomatik təzyiqlərə də sinə gələrək, mürəkkəb məsələlərin öhdəsindən uğurla, ləyaqətlə gəlməyi bacardı. Azərbaycan bütün dünyaya həm döyüş, həm də diplomatiya meydanında münaqişənin hərb yolu ilə həllinin mümkünlüyünü sübut etdi. Döyüş meydanında Azərbaycan əsgərlərinin qazandığı zəfər diplomatiya meydanında da uğurlara çevrildi və sonda danışıqların şərtlərini Azərbaycan tərəfi diktə etdi. 44 gün davam edən Vətən müharibəsi dövründə dünyanın 10-dan artıq nüfuzlu televiziya kanalına və informasiya agentliklərinə müsahibə verən Prezident İlham Əliyev Azərbaycana qarşı irəli sürülən bütün yalan informasiyaları ifşa etdi. Ölkə rəhbərimiz öz qətiyyətli siyasəti ilə nəinki cəbhədə, hətta informasiya sahəsində də ən məşhur xarici jurnalistlərin suallarını tutarlı tarixi faktlarla cavablandıraraq bütün dünyaya sübut etdi ki, Qarabağ Azərbaycandır!
Azərbaycan xalqının öz ərazi bütövlüyünü bərpa etdiyi, torpaqlarını işğaldan azad etdiyi bir dönəmdə bəzi dünya dövlətləri yenə də öz məkrli siyasətlərindən əl çəkmir, "Qarabağ ermənilərinin öz müqəddəratını təyin etməsi" məsələsini bir problem kimi ortaya atırdılar. Qarabağda yaşayan

azərbaycanlılara qarşı silahlı təcavüzə haqq qazandırmağa çalışanlar guya bu torpaqların əzəldən ermənilərə "məxsus olduğu" yalanını ortaya atırdılar. Əlbəttə ki, tarixi faktlar isə bunun tam əksini söyləyir. Təkcə İbrahim xanla Rusiya İmperiyasının 1805-ci il mayın 14-də imzaladıqları Kürəkçay müqaviləsini xatırlamaq kifayətdir ki, Azərbaycan torpaqlarının işğal edildiyini, ermənilərin isə bura Türkiyə və İrandan köçürülərək gətirildiklərini bütün dünyaya isbatlamış olasan. Bu sənəddən aydın görünür ki, Qarabağ bütün dövrlərdə Azərbaycan türklərinin torpağı olmuşdur. Dövlətimizin başçısı cənab İlham Əliyev oktyabrın 26-da xalqa müraciəti zamanı bir daha tarixi həqiqətləri diqqətə çatdırmış, vaxtilə Qarabağ xanı ilə Rusiya çarı arasında imzalanmış "Kürəkçay" müqaviləsində erməni xalqı haqqında bir kəlmənin belə olmadığını xatırlatmışdır: "Mən deyəndə ki, biz tarixi ədaləti bərpa edirik, tam haqlıyam. Mən Münxen təhlükəsizlik konfransında bütün dünyaya və bu, canlı formatda aparılmış diskussiya əsnasında sübut edə bilmişəm ki, bu, bizim tarixi torpağımızdır. XIX əsrin əvvəllərində Kürəkçay sülh anlaşması haqqında məlumat vermişdim. Dünyada bu anlaşma haqqında, ümumiyyətlə, geniş ictimai fikirdə heç bir məlumat yox idi. Əfsuslar olsun ki, hətta Azərbaycanda bu müqavilə haqqında geniş məlumat yox idi. Kürəkçay sülh müqaviləsini Qarabağ və Şuşa xanı İbrahimxəlil xan imzalamışdır, digər tərəfdən Çar Rusiyasının generalı imzalamışdır. O müqavilə internetdə var, hər kəs baxa bilər. Əminəm ki, mənim bu sözlərimdən sonra indiki döyüş meydanında vəziyyəti maraqla izləyən geniş beynəlxalq auditoriya gedib bu saytlara girəcək, baxacaq görəcək ki, o müqavilədə erməni xalqı haqqında bir kəlmə də yoxdur. Çünki erməni xalqı o vaxt orada yox idi. Erməni xalqı Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələrindən sonra bizim dədə-baba torpaqlarımıza gətirildi. Məqsədyönlü şəkildə gətirildi və ölkəmizin ən dilbər guşələrindən biri olan Qarabağda yerləşdirildi, onlara şərait yaradıldı. Məqsəd aydın idi - imperiyanın yeni torpaqlarında dini tərkibi dəyişdirmək, müsəlmanları öz dədə-baba torpaqlarından qovmaq, didərgin salmaq və yeni reallıq yaratmaq idi".

44 gün davam edən haqq mübarizəsi sayəsində bütün dünya gördü ki, Azərbaycan bir yumruq kimi birdir. İnanırıq ki, tarixin bu keşməkeşli sınağından üzüağ, alnıaçıq, şərəflə və qürurla çıxan Azərbaycan qələbəmizin rəmzinə çevrilən dəyərlərimizi daha da möhkəmləndirəcək və dünyanın formalaşmaqda olan yeni strateji mənəzərəsində öz mövqeyini daha da gücləndirəcək.

**Xülasə**

Məqalədə xalqımızın ən şanlı səhifəsi olan 8 noyabr böyük zəfər tariximizdən bəhs olunur. Həmin gün bütün Azərbaycan və bütün türk dünyası sevincə qərq oldu. Xalqımızın 28 illik gözləntiləri, arzu və istəkləri reallığa çevrildi. 8 noyabr xalqımızın tarixinə qızıl hərflərlə yazıldı. Ali Baş Komandanımız, Müzəffər Ordumuz xalqımıza bu böyük qələbənin sevincini yaşatdı.

**İstifadə olunmuş ədəbiyyat**

1. “Mədəniyyət jurnalı”, Sentyabr-Oktyabr-2020.
2. https://mdi.gov.az
3. https://copat.gov.az › news › 8-noya..

***Kompüter yığımı*** - *Sahibə Nəsirova, ADPU-nun Ağcabədi filialının kompüter mərkəzinin müdiri*

*Yığılmağa verilib: 01.11.2022*
*Çapa imzalanıb: 16.11.2022*
*Tiraj 50*

***ADPU-nun Ağcabədi filialının kompüter mərkəzi***

----------------------------------------------------------------------------------------------------------------------------

***E-mail:*** *sahibanasirova1963@mail.ru*